17 iyun 2022 №45 (1918)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Yenidən Bülbülün sənət cazibəsində

İyunun 16-da Bakıda Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsi başlayıb. Müsabiqədə Azərbaycan, Rusiya, İsrail, Türkiyə, Monqolustan, Özbəkistan, Ukrayna, Meksika, Qazaxıstan və digər ölkələrdən 100-ə yaxın ifaçı iştirak edir.

Bu il müsabiqə görkəmli müğənni, SSRİ Xalq artisti Bülbülün (1897-1961) anadan olmasının 125 illiyinə həsr olunub.

Sənətkarın Bakıdakı abidəsi önündə təşkil olunan açılış mərasimində Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlu, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

*davamı səh. 2-də*

## Mədəniyyət müəssisələri fəaliyyətini günün tələbləri səviyyəsində qurmalıdır

Mədəniyyət naziri Anar Kərimov iyunun 16-da Beyləqana səfəri zamanı rayon Mədəniyyət Mərkəzində mədəniyyət işçiləri ilə görüş keçirib. Görüşdə Kürdəmir, İmişli, Füzuli, Beyləqan və Xocavənd rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri iştirak ediblər.



Tədbirdə mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib.

Bölgələrdə mədəniyyət işçiləri arasında peşəkarlığın və təşəbbüskarlığın artırılmasının vacibliyini qeyd edən Anar Kərimov nazirlik sistemində idarəçiliyin təkmilləşdirilməsi kontekstində mədəniyyət müəssisələrinin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasının prioritet məsələ olduğunu diqqətə çatdırıb.

Nazir problemlərin aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

# Qlobal dünya nizamına təhdidləri necə aradan qaldırmalı?

### Nizami dühası işığında IX Qlobal Bakı Forumu bu suala cavab axtarır

Ötən ilin noyabrında burada – "Gülüstan" sarayında keçirilən görüşümüzdən bəri dünyanın dəyişməsi aydındır. Dəyişiklik fundamentaldır. Hələ ki, proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur, lakin dünyanın fərqli olacağı aydındır və o, artıq fərqlidir.




Prezident İlham Əliyev bu sözləri iyunun 16-da işə başlayan "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunun açılışında deyib.

Azərbaycan Respublikası Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi Qlobal Bakı Forumuna 50-dək ölkədən nümayəndə heyətləri, o cümlədən dövlət başçıları, nazirlər, sabiq prezidentlər, eləcə də beynəlxalq təşkilatların rəhbər və yüksək vəzifəli şəxsləri qatılıb.

Forumun açılışından öncə xatirə fotosu çəkdirilib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin IX Qlobal Bakı Forumunu açıq elan edərək sözü Prezident İlham Əliyevə verib.

Forumun iştirakçılarını salamlayan dövlət başçısı qeyd edib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal məsələləri müzakirə edən və geniş beynəlxalq birliyi öz sıralarına qata bilən aparıcı beynəlxalq institutlardan birinə çevrilib. Bu, bizim müzakirələrin cəlbedici olduğunu nümayiş etdirir, bu platformaya ehtiyacın olduğunu nümayiş etdirir və o, çox faydalıdır, onun çox mühüm praktiki təsiri var. Prezident vurğulayıb ki, Avropadakı cari vəziyyət barədə açıq müzakirələrin aparılması tələb olunur və Qlobal Bakı Forumu bunun üçün mükəmməl platformadır. Bu, müxtəlif tərəflərin fikirlərini toplayan inklüziv bir Forumdur. Biz hamımız dünyanı daha da təhlükəsiz etmək üçün bir-birimizlə daha yaxından çalışmalıyıq.

Prezident daha sonra deyib: "Eyni zamanda, mən əminəm ki, gündəlikdə duran məsələlərdən biri beynəlxalq institutların, aparıcı beynəlxalq institutların, aparıcı maliyyə institutlarının ərzaq böhranı ilə mübarizədə rolunun nədən ibarət olması məsələsi olacaq. Çünki bu məsələ labüddür, o, artıq bizə yaxınlaşır. Beynəlxalq təşkilatlar və aparıcı ölkələr, həmçinin miqrantların potensial artımı ilə bağlı vəziyyətin öhdəsindən gəlməlidirlər. Bu, ərzaq böhranı nəticəsində baş verəcəkdir. Enerji bazarlarındakı vəziyyəti buraya əlavə etsək, bu vəziyyəti proqnozlaşdırmaq çətindir. O, istehsalçılar və istehlakçılar arasında bərabərsizliyə yol açır və bu, həmçinin istehsalçılar üçün də riskdir. Əgər kimsə neft və qaz istehsal edən ölkələrin bu yüksək qiymətlərə görə çox sevindiyini düşünürsə, bu, düzgün dəyərləndirmə deyil. İstehsalçılar və istehlakçılar arasında maraqlar tarazlığı, sabit bazar – istehsalçılara həqiqətdə bu, lazımdır...".

Azərbaycanın və yerləşdiyimiz regionun təhlükəsizlik məsələlərinə toxunan İlham Əliyev vurğulayıb ki, Qarabağ münaqişəsinin həlli regionda sülh və təhlükəsizlik üçün bir fürsətdir: "Azərbaycan müharibədə qalib gəldi, müharibə ədalətli idi, müharibə labüd idi və ədalətin, beynəlxalq hüququn və Azərbaycan xalqının milli ləyaqətinin bərqərar olunması ilə nəticələndi. İndi biz sülh haqqında danışırıq. Hesab edirəm ki, belə uzunmüddətli qarşıdurmadan sonra ədaləti bərqərar edən və təcavüzkarı məğlub edən ölkənin qısa müddət ərzində sülh təklif etməsi dünyada nadir hallardan biridir. Müharibələr tarixinə baxsanız, bir çox hallarda bu mənzərə müşahidə edilmir. Nə üçün biz sülhü seçdik? Çünki biz Cənubi Qafqazda sabit, dayanıqlı inkişafı görmək istəyirik. Bu, nadir fürsətdir. Cənubi Qafqaz üç Cənubi Qafqaz ölkəsinin müstəqillik illəri ərzində parçalanmışdır. Ermənistanın işğalı səbəbindən o, 30 il ərzində parçalanmışdır. İndi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan bunun üzərində çalışır".

Prezident diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanla münasibətlərin normallaşması üçün sülh razılaşması üzərində çalışmağa başlamağı təklif edib: "Biz hər iki ölkənin sərhədlərinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət etmək və tanımaq, indi və gələcəkdə hər hansı bir ərazi iddialarından qarşılıqlı şəkildə çəkinmək prinsipi də daxil olmaqla, beynəlxalq hüququn beş əsas prinsipini və bizim təklifin əsasını təşkil edən başqa prinsipləri də irəli sürdük. Bu beş prinsipin Ermənistan hökuməti tərəfindən qəbul edilməsi bizi məmnun etdi. Beləliklə, bu, müsbət dinamikadır. Lakin indi biz praktiki icraya keçməliyik. Azərbaycan artıq öz tərəfindən sülh razılaşması üzrə komissiyasını yaradıb və biz eyni addımın Ermənistan tərəfindən atılmasını da gözləyirik. Bu addım atılan kimi və ya atılan təqdirdə danışıqlar başlayacaq...".

*davamı səh. 2-də*

## Lənkəran şəhərinin mədəni inkişaf strategiyası təqdim olundu

Lənkəran şəhərinin mədəni inkişaf strategiyası hazırlanıb. İyunun 13-də Lənkəran Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə "Lənkəran Springs Hotel"də strategiyanın təqdimatına həsr olunan tədbir keçirildi.




Strategiya Lənkəranın şəhərinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "EU4Culture" ("Avropa İttifaqı mədəniyyət naminə") layihəsi çərçivəsində elan edilən "Şərq Tərəfdaşlığı ölkələrində iqtisadi inkişaf və sosial rifah üçün mühərrik kimi mədəniyyət və yaradıcılığın təşviqi" qrant müsabiqəsində iştirakı çərçivəsində hazırlanıb.

Mərasimdə Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Ramil Abbəkirov çıxış edərək bildirdi ki, mədəniyyət həyatımızda böyük rolu olan amillərdən biridir. Gündəlik həyat tərzimiz, kulinariya, ünsiyyət və s. Bütün bunlar mədəniyyətin bir parçasıdır. Mədəni inkişaf fərd, icma və dövlət olaraq bir-biri ilə əlaqəli şəkildə inkişaf etməlidir. Mədəniyyət Nazirliyi bu istiqamətdə çoxsaylı layihələr həyata keçirir ki, hazırda bu layihələrin böyük bir hissəsi işğaldan azad olunmuş ərazilərimizə yönəldilib və mədəniyyət paytaxtımız Şuşada reallaşır.

"EU4Culture" layihəsi haqqında söz açan şöbə müdiri dedi ki, bu layihə Avropa İttifaqının Şərqində yerləşən 5 ölkədə reallaşır: "Layihənin 2021-ci ildən başlayan fazasında əsas diqqət mərkəzə deyil, regionlara yönəldilib. Ölkəmizdən layihəyə 8 şəhər müraciət etmişdi. Birinci mərhələdə 5 şəhər, ikinci mərhələdə isə 3 şəhər – Şəki, Xırdalan və Lənkəran – qrantı əldə etmək uğrunda yarışır. Lənkəran çox gözəl və potensialı ilə seçilən şəhərlərimizdəndir. Bu şəhər qalib gələrsə, çalışacağıq ki, onun mədəni potensialını bu strategiya vasitəsilə üzə çıxara bilək. Strategiyanın işləmə müddəti 4 il üçün nəzərdə tutulub. Layihə əsas olaraq cəmiyyətin aktiv dəstəyini tələb edir. Çünki yekun məqsəd yenə də insanların rifahına xidmət edir".

*davamı səh. 4-də*

## Azərbaycan-Türkiyə müttəfiqliyi ortaq gələcəyimizin möhkəm təməlidir

İyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşada "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransda hər iki ölkənin dövlət və hökumət rəsmiləri, siyasilər, millət vəkilləri iştirak ediblər.




Əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, hər iki ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Şuşa Bəyannaməsinin birinci ildönümü ilə bağlı videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə vurğulanır ki, bir il əvvəl – 2021-ci il iyunun 15-də Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ilə dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlib. Şuşa Bəyannaməsi çoxşaxəli münasibətlərimizin ən yüksək zirvədə olduğunu göstərən mühüm sənəddir.

Qeyd olunur ki, Qars müqaviləsindən (1921) 100 il sonra imzalanmış Şuşa Bəyannaməsi ortaq tariximizə əsaslanmaqla yanaşı, müasir reallıqları əks etdirir, ölkələrimiz arasında mövcud və gələcək işbirliyinin strateji istiqamətlərini müəyyənləşdirir, Azərbaycanın və Türkiyənin milli gücünün artmasını, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsini şərtləndirir.

Konfrans çərçivəsində panel müzakirələr aparılıb.

*davamı səh. 3-də*

## Sabirin satiraları müsəlman Şərqində intibah, oyanış səsləri idi...

Xəbər verdiyimiz kimi, bu il görkəmli şair, maarifçi-pedaqoq Mirzə Ələkbər Sabirin (1862-1911) anadan olmasının 160, həmçinin söz ustadının adı ilə şərəflənən, 1962-ci ildə əsası qoyulan poeziya bayramının – "Sabir poeziya günləri"nin 60 illiyidir.



İyunun 12-də Şamaxıda rayon İcra Hakimiyyəti və Azərbaycan Yazıçılar Birliyinin (AYB) birgə təşkilatçılığı ilə "Sabir poeziya günləri" çərçivəsində satirik şeirimizin ustadının yubileyi münasibətilə elmi-praktik konfrans keçirilib.

Tədbirdə AYB-nin sədri, Xalq yazıçısı Anar, rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, Milli Məclisin deputatı Tamam Cəfərova, Mirzə Ələkbər Sabir Fondunun rəhbəri Sevda Tahirli, tanınmış ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konfrans iştirakçıları öncə M.Ə.Sabirin Şamaxının Yeddi günbəz qəbiristanlığında məzarını ziyarət edib, önünə tər çiçəklər düzüblər.

*davamı səh. 4-də*

### Hərbi hissədə bayram konserti



səh. 2

### "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" mövzusunda treninq keçirilib

səh. 3



### Regionlarda Milli Qurtuluş Günü tədbirləri

səh. 4

# Qlobal dünya nizamına təhdidləri necə aradan qaldırmalı?

əvvəli səh. 1-də

İki ölkə sərhədinin delimitasiyası prosesinə də başlanıldığını və Azərbaycan-Ermənistan sərhəd komissiyasının birinci birgə iclasının keçən ay sərhəddə baş tutduğunu deyən Prezident İlham Əliyev vurğulayıb ki, biz bu yolun uzun olduğunu anlayırıq, lakin bu proses artıq başlayıb. Eyni zamanda Azərbaycan kommunikasiyaların açılması ilə bağlı Ermənistanın 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata əməl edəcəyini gözləyir: "Bəyanata əsasən, Azərbaycan Ermənistandan Azərbaycanın erməni əhalisinin yaşadığı Qarabağ bölgəsinə maneəsiz çıxışın təmin olunması üçün üzərinə öhdəlik götürdü. Beləliklə, bir il yarımdır ki, ermənilər Laçın yolundan istifadə edirlər və maneəsiz əlaqəyə malikdirlər. Azərbaycanlılar isə Ermənistan ərazisindən keçən yoldan, bizi Naxçıvanla birləşdirən Zəngəzur dəhlizindən istifadə edə bilmirlər. Bu, ədalətsizlikdir və biz bununla razılaşmayacağıq. Ermənistan tərəfindən bizə belə bir əlaqə yolunun verilməsi məsələsinin məqsədyönlü şəkildə gecikdirilməsi səmərəsizdir. Bu, mənə əvvəlki danışıqlar dövrünü xatırladır ki, Ermənistan o zamanlar vaxt udmaq üçün davamlı olaraq bütün məsələləri gecikdirirdi. Bu, nə ilə nəticələndi? Nəticə həm döyüş meydanında, həm də siyasi arenada tam məğlubiyyət oldu...".

Prezident vurğulayıb ki, Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir.




Əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgəyaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq.

Dövlət başçısı Azərbaycanda yaşayan ermənilərlə bağlı məsələyə də diqqət çəkib. Bildirib ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan və Ermənistan ilə axırıncı görüşdən sonra yaydığı bəyanatda Qarabağda yaşayan erməni əhalisinin də hüquqları və təhlükəsizliyinin nəzərə alınacağını deyib: "Biz bunu tam şəkildə dəstəkləyirik. Azərbaycan çoxmillətli ölkədir və erməni əhalisi Azərbaycanın heç də ən böyük milli azlığı deyil. Yəni, bizim Konstitusiyamıza görə, bütün millətlərin nümayəndələri bərabər hüquqa malikdir, o cümlədən, illər boyu Azərbaycanda yaşayan ermənilər. Bəli, hüquqlar və təhlükəsizlik məsələləri tərəfimizdən təmin ediləcək. Lakin, təəssüflər olsun ki, biz Ermənistan hökuməti tərəfindən dırnaqarası Dağlıq Qarabağın statusu ilə bağlı fikirlərin səsləndirilməsinin şahidi oluruq. Bu, tamamilə səmərəsizdir və Ermənistanın özü üçün təhlükəlidir. Dağlıq Qarabağ mövcud deyil. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edilib. Bizim ərazimizdə belə bir inzibati struktur yoxdur. Bu səbəbdən, dırnaqarası statusla bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq. Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb. Status məsələsinin gündəmə gətirilməməsi ilə bağlı şifahi razılıq var idi. Təəssüflər olsun ki, bu, baş verir və bunun çox ciddi nəticələri ola bilər. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altına qoyacaqsa, Azərbaycan üçün Ermənistanın ərazi bütövlüyünü sual altına qoymaqdan başqa çıxış yolu olmayacaq. Tarixi nöqteyi-nəzərdən bizim bunu etməyə hüququmuz var. Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşməsindən sonra sovet hakimiyyəti Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirdi. Yəni, Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etməyə cəhd edəcəksə, nə üçün azərbaycanlılar Qərbi Zəngəzurda özləri üçün status tələb etməsin? Həmin ərazilərin əhalisi tamamilə azərbaycanlılardan ibarət olub...".

Azərbaycan Prezidenti çıxışının sonunda bir daha vurğulayıb ki, bizim Qafqazla bağlı baxışımız inteqrasiya və əməkdaşlıqdan ibarətdir. Bildirib ki, Azərbaycan bu məsələ ilə bağlı Gürcüstanla da məsləhətləşmə aparıb və Azərbaycan, Gürcüstan və Ermənistan xarici işlər nazirləri səviyyəsində üçtərəfli görüşün keçirilməsi təklifini rəsmi Tbilisi də dəstəkləyir. Ermənistan isə bundan imtina edir: "Ermənistan Cənubi Qafqazda sülh istəmirsə, istədiyi nədir? Onlar növbəti müharibə istəyirlərsə, bu, onlar üçün fəlakət olacaqdır və onlar bunu yaxşı anlayır... Azərbaycan Zəngəzur dəhlizinin öz ərazisindən keçən hissəsinin yekunlaşdırılmasına yaxındır. Yeni marşrutlar və enerji təhlükəsizliyi də bu sıradadır. Hesab edirəm ki, işə başlamağın vaxtıdır. Biz 30 il itirdik və erməni işğalı olmasa idi, düşünürəm ki, Cənubi Qafqaz bu gün daha müasir, dinamik və daha geniş iqtisadi potensiala malik region ola bilərdi...".

Prezident sonda IX Qlobal Bakı Forumunun işinə uğurlar arzulayıb.

***

Sonra Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa, Albaniyanın Prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviç, Gürcüstan Prezidenti Salome Zurabişvili, Dünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım, BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Ərəb Dövlətləri Liqasının baş katibi Əhməd Abul Qeyt və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin çıxış ediblər.

Forum işini panel iclaslarla davam etdirib. IX Qlobal Bakı Forumu iyunun 18-də başa çatacaq.

# Mədəniyyət naziri Beyləqanda vətəndaşlarla görüşüb və müəssisələrə baxış keçirib

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli ilə əlaqədar müvafiq addımlar atılır.

2022-ci ilin iyun ayı üzrə şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyunun 16-da Beyləqan rayon Heydər Əliyev Mərkəzində Beyləqan, Füzuli və Xocavənd rayonlarının sakinləri ilə görüşüb.

Qəbuldan öncə mədəniyyət naziri Anar Kərimov və Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Nazir Anar Kərimov 2012-ci ildə rəsmi açılışı olan Beyləqan rayon Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub, ulu öndərin həyatının və dövlətçilik fəaliyyətinin fərqli dövrlərini əks etdirən materiallara, tarixi sənədlərə, müxtəlif illərdə Beyləqana səfərləri ilə bağlı fotolara baxıb. Nazirə məlumat verilib ki, mərkəzdə rəsm studiyası, internet otağı, xarici dil kursu, həmçinin akt, konfrans və ekspozisiya zalları mövcuddur.





Daha sonra Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib.

Beyləqan, Füzuli və Xocavənd rayonlarından olan sakinlərin müraciətləri əsasən işlə təmin olunma, kitabxana sahəsində fəaliyyətin təkmilləşdirilməsi, kitab nəşrinə köməklik göstərilməsi, iş yerinin dəyişdirilməsi və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların ayrı-ayrı məsələlərlə bağlı müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

***

Qəbuldan sonra nazir Beyləqan rayonunda tarixi abidəyə və bir sıra mədəniyyət müəssisələrinə baş çəkib.

Nazir Beyləqan şəhidlərinin uyuduğu məzarlığı ziyarət edib, 44 günlük Vətən müharibəsində canından keçən qəhrəman oğulların xatirəsinə ehtiramını bildirib. Sonra həmin ərazidəki yerli əhəmiyyətli tarixi abidə – Cərcis peyğəmbər ziyarətgahına (XVI əsr) baş çəkib. Abidənin tarixi və memarlığı barədə nazirə məlumat verilib.

Anar Kərimov Beyləqan şəhər Niyazi adına Uşaq musiqi məktəbində Mədəniyyət Nazirliyinin vəsaiti hesabına aparılan əsaslı təmir işləri ilə tanış olub. Nazir işlərin vaxtında, keyfiyyətlə həyata keçirilməsi barədə müvafiq tapşırıq və tövsiyələrini verib.

Bildirilib ki, musiqi məktəbi 1968-ci ildə yaradılıb. 1984-cü ildən fəaliyyətini öz binasında davam etdirən məktəbdə tar, kamança, qarmon, nağara, fortepiano və xanəndəlik sinifləri mövcuddur. 282 şagirdin təhsil aldığı məktəbdə 67 müəllim çalışır.

Mədəniyyət naziri 2019-cu ildə əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinə də baxış keçirib. Bildirilib ki, 1981-ci ildə yaradılan muzeydə 6139 eksponat mühafizə edilir. Həm ölkəmizin, həm də Beyləqanın tarixini əks etdirən eksponatların toplandığı muzeydə ekspozisiya zalı, iki xidməti otaq, bir fond otağı, konfrans zalı, dəyirmi masa zalı və bir texniki otaq mövcuddur.

Səfər çərçivəsində Anar Kərimov əsası 1946-cı ildə qoyulan və 400 min nüsxəyə yaxın kitab fondu olan Beyləqan rayon Mərkəzi Kitabxanasına, 1939-cu ildə Beyləqan şəhərində əvvəlcə klub kimi yaradılan və 2015-ci ildən mədəniyyət mərkəzi olaraq fəaliyyətini davam etdirən rayon Mədəniyyət Mərkəzinə də baxış keçirib, müəssisələrin fəaliyyəti barədə məlumat alıb.

Beyləqanda mədəniyyət müəssisələri ilə tanışlıqdan sonra nazir Anar Kərimov rayon Mədəniyyət Mərkəzində "Aran qala" xalq çalğı alətləri ansamblı, Kürdəmir, Beyləqan və Füzuli rayon uşaq musiqi və incəsənət məktəbləri xor kollektivlərinin ifasında konsert proqramını izləyib.

# Tofiq Mirzəyev "Xalq artisti" fəxri adına və "Şöhrət" ordeninə layiq görülüb

Prezident İlham Əliyev iyunun 14-də tanınmış aktyor, televiziya rejissoru Tofiq İbrahim oğlu Mirzəyevə Azərbaycanın "Xalq artisti" fəxri adının verilməsi haqqında sərəncam imzalayıb. Tofiq Mirzəyev Azərbaycanın kino sənətinin inkişafında xidmətlərinə görə bu ada layiq görülüb.

Dövlət başçısının eyni gündə imzaladığı digər sərəncamla Tofiq Mirzəyev Azərbaycan kinematoqrafiyasının inkişafında səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

Qeyd edək ki, ötən əsrin 90-cı illərindən İsraildə yaşayan Tofiq Mirzəyevin iyunun 16-da 90 yaşı tamam olub.

# Hərbi hissədə bayram konserti

İyunun 14-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə N saylı hərbi hissədə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert keçirilib.

Tədbirin aparıcıları Ayaz Məmmədov və Günay Firudinqızı hərbçiləri salamlayaraq Milli Qurtuluş Gününün Azərbaycan tarixində yerindən söhbət açıblar. Müğənnilər Elnur Məmmədov və Xatunun ifa etdiyi mahnılar, "Aysel" rəqs qrupunun çıxışı hərbçilər tərəfindən rəğbətlə qarşılanıb.

# "Şuşa İli"nə həsr olunmuş sənət hesabatı



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Müslüm Maqomayev adına 26 nömrəli onbirillik Musiqi məktəbi "Şuşa İli"nə həsr olunmuş hesabat konserti keçirib.

Tədbirdə baş idarənin rəisi İbrahim Əliyev, paytaxtdakı uşaq musiqi və incəsənət məktəblərinin direktorları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Müxtəlif ixtisaslar üzrə təhsil alan şagirdlər Azərbaycan və dünya bəstəkarlarının əsərlərini solo və ansambl şəklində səsləndiriblər. Konsert proqramı tamaşaçılarda xoş əhval-ruhiyyə yaradıb.

Qeyd edək ki, məktəbin bir çox şagirdi tədris ili boyu respublika və beynəlxalq miqyaslı müsabiqələrdə uğurla iştirak edib.

# İnsanların qəlbinə, ruhuna toxunan bir tarixin lentə köçürülmüş halı

## "Torpaq" sənədli filmi təqdim olundu

1988-1991-ci illərdə Qərbi Azərbaycandan – indiki Ermənistan ərazisindən soydaşlarımızın deportasiya olunmasından bəhs edən "Torpaq" adlı sənədli film çəkilib.

İyunun 14-də Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin sifarişi, Qərbi Azərbaycan İcmasının dəstəyi ilə "Salnaməfilm" studiyasında istehsal olunan filmin təqdimatı keçirildi.

Ekran işinin ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi Ayaz Salayev, məsləhətçisi Milli Məclisin deputatı, Azərbaycan Qaçqınlar Cəmiyyətinin və Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərovdur.

Tədbirdə çıxış edən millət vəkili Əziz Ələkbərov filmin əhatə etdiyi mövzunun tarixi əhəmiyyətindən söz açdı. Bildirdi ki, filmin təqdimatının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü ərəfəsində keçirilməsi təsadüfi deyil. Çünki Heydər Əliyev xalqımızın deportasiya və soyqırımlarına məruz qalmasına ilk dəfə dəqiq tarixi-siyasi qiymət verib.

Millət vəkili dedi ki, Qərbi Azərbaycandan deportasiya olunmuş qaçqın soydaşlarımız haqqında birsaatlıq ekran əsəri hadisələrin canlı şahidlərinin müsahibələri əsasında ekranlaşdırılmış filmsalnamədir: "Torpaq" filmi bizim tarixi torpaqlarımızı heç vaxt unutmadığımızın növbəti sübutudur. Düşmən də bilməlidir ki, Zəngəzur, Göyçə, İrəvan və digər mahallarımız tarixi Azərbaycan torpaqlarıdır".

Rejissor Ayaz Salayev filmin ideyasının hələ Vətən müharibəsindən əvvəl yarandığını dedi. Bildirdi ki, soydaşlarımızın erməni daşnakları tərəfindən öz tarixi




dədə-baba torpaqları olan Qərbi Azərbaycandan – indiki Ermənistandan deportasiyasından bəhs edən ekran əsərinə baxanda tariximizin o dövrünün ziddiyyətlər dolu acı mənzərəsinin şahidinə çevrilir, mənfur düşmənin bağışlanmaz bəd əməllərinə bir daha nifrət edirsən: "Bu film insanların qəlbinə, ruhuna toxunan bir tarixin lentə köçürülmüş halıdır. Əslində, Qarabağ məsələsinin birinci qolu 2020-ci ildəki şanlı Zəfərimizlə həll yoluna qədəm qoydu. Problemin ikinci qolu isə Qərbi Azərbaycanla bağlıdır. Prezident İlham Əliyev də daim çıxışlarında Zəngəzurun bizim dədə-baba torpaqlarımız olduğunu dilə gətirir".

Çıxışlardan sonra "Torpaq" filmi nümayiş olundu.

70-dən çox şahidin dilindən hadisələrə münasibət ortaya qoyulan filmdə Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəngəzur, Göyçə və İrəvanın tarixi Azərbaycan torpaqları olması və bizim mütləq o torpaqlara qayıdacağımızla bağlı çıxışlarından parçaların yer aldığı kadrlar tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Ekran əsərinin operatoru Rəşad Nuriyev, musiqi müəllifi Azər Əsgərov, montaj rejissoru Sabir Əsgərzadə, prodüseri Nazim Hüseynovdur.

**L.Azəri**

# Yenidən Bülbülün sənət cazibəsində

## Vokalçıların Bülbül adına beynəlxalq müsabiqəsi

əvvəli səh. 1-də

Polad Bülbüloğlu diqqətə çatdırıb ki, Bülbül adına birinci beynəlxalq müsabiqə görkəmli müğənninin 100 illiyi ərəfəsində, 1997-ci ildə mədəniyyətimizin böyük təəssübkeşi, xalqımızın ümummilli lideri Heydər Əliyevin müvafiq sərəncamı ilə keçirilib və o vaxtdan ənənə halını alıb: "Budəfəki müsabiqədə iştirak üçün dünyanın müxtəlif ölkələrindən iştirakçılar gəlib. Tanınmış professor və ifaçılar müsabiqənin münsifində yer alırlar. Çox şadam ki, yekun konsert Bülbülün doğum günündə, 22 iyun tarixində keçiriləcək və iştirakçılara Şuşada diplomlar təqdim olunacaq. 30 illik həsrətdən sonra biz hər dəfə Şuşaya gedəndə sanki torpaqdan güc alaraq gəncləşirik. Məmnunam ki, xaricdən gələn münsifləri də Şuşa ilə tanış edəcəyik. Müsabiqənin reallaşmasında dəstək olan Heydər Əliyev Fonduna, Mədəniyyət Nazirliyinə, Azərbaycan Dövlət Akademik Filarmoniyasına dərin təşəkkürümü bildirirəm".

Qeyd edək ki, 16-23 iyun tarixində keçirilən müsabiqədə 18-35 yaş arası ifaçılar iştirak edirlər. Müsabiqənin birinci turunda opera, kantata və ya oratoriyadan ariya, ikinci turunda isə operadan ariya və Bülbülün repertuarından Azərbaycan bəstəkarlarının əsərlərinin ifası nəzərdə tutulur.

**Lalə**

# Azərbaycan-Türkiyə müttəfiqliyi ortaq gələcəyimizin möhkəm təməlidir

## Şuşa Bəyannaməsinin ildönümünə həsr olunan beynəlxalq konfrans keçirilib




*əvvəli səh. 1-də*

Birinci panel müzakirəsində Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Türkiyə Milliyyətçi Hərəkat Partiyasının baş katibi İsmət Böyükataman, Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala və AKP sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım çıxış ediblər.

Tahir Budaqov bildirib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Azərbaycan xalqının taleyində müstəsna rol oynayan 15 İyun – Milli Qurtuluş Günündə iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünü qeyd etmək sonsuz qürur və iftixar hissi yaradır. Vurğulanıb ki, bugünkü reallıqlar ümummilli lider Heydər Əliyevin “Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir” və böyük öndər Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamlarının real həyatda öz təsdiqini tapmasını əks etdirir.

Prezident İlham Əliyevin “İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir. Savaşın son dəqiqəsinə qədər – Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq” sözlərini xatırladan T.Budaqov qeyd edib ki, istər otuz ilə yaxın müddət ərzində davam edən münaqişə dövründə, istər 44 günlük Vətən müharibəsi zamanı, istərsə də postmüharibə mərhələsində qardaş Türkiyənin Azərbaycanın yanında olması ölkələrimizin tarixin taleyüklü məqamlarında çətin və mürəkkəb sınaqlardan əzm və ləyaqətlə çıxdıqlarını təsdiqləyir.

İsmət Böyükataman çıxışında bildirib ki, Şuşa Bəyannaməsinin imzalanması, nəinki Türkiyə və Azərbaycan arasında davam edən sıx tərəfdaşlığın artırılması, həmçinin regionda və Türk dünyasında yeni əlaqələrin qurulmasını hədəfləyir.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bir il öncə bugünkü tarixdə Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalandığını, bu tarixi sənədin Azərbaycan–Türkiyə qardaşlığının həm siyasi, iqtisadi, hərbi, həm də mənəvi simvolu olduğunu bildirib. Şuşa Bəyannaməsi eyni zamanda ölkəmizin ərazi bütövlüyünün toxunulmazlığına böyük mənəvi-siyasi dəstəyin ifadəsidir.

Binəli Yıldırım da çıxışında Şuşa Bəyannaməsinin əhəmiyyətindən bəhs edərək bildirib ki, bu, eyni zamanda Türk dünyasında birlikdə iş görmənin önünü açan genişmiqyaslı bir sənəddir.

***

İkinci panel müzakirəsində Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçi, Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov, Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy, Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Bursa Uludağ Universitetinin professoru, Siyasi, İqtisadi, İctimai Tədqiqatlar Vəqfinin elmi araşdırmaçısı Ferhat Pirinççi çıxış ediblər.

Mehmet Nuri Ersoy Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan regiona və dünyaya verilən mesajların çox vacib olduğuna inamını bildirib, Azərbaycan Prezidenti İlham Əliyevin liderliyində azadlığa qovuşan Qarabağı yenidən dirçəldən işlərin yaxından izlənildiyini qeyd edib. O, 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşada gerçəkləşdiriləcək bərpa işləri də daxil olmaqla hər cür fəaliyyətdə dəstək və kömək göstərməyə hazır olduqlarını diqqətə çatdırıb. Türkiyəli nazirin sözlərinə görə, regionda bərpa işlərinin reallaşdırılması turizm potensialı və imkanlarını da genişləndirəcək.

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov çıxışında işğaldan azad edilən ərazilərdə mədəni irsin yenidən bərqərar olunmasında dövlətimiz tərəfindən sistemli tədbirlərin həyata keçirildiyini, bu prosesdə qardaş Türkiyənin də dəstək göstərdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Şuşa şəhərinin 2023-cü il üçün “Türk Dünyasının Mədəniyyət Paytaxtı” seçilməsi də türk xalqlarının qədim şəhərimizə verdiyi dəyərin ifadəsidir.

Azərbaycanla Türkiyənin mədəniyyətin müxtəlif istiqamətlərində fəal əməkdaşlığını qeyd edən nazir bu işbirliyinin kino sahəsini də əhatə etdiyini, Vətən müharibəsi ilə bağlı müştərək çoxseriyalı film layihəsi üzərində işə başlanıldığını deyib. Digər tədbir və layihələr haqqında söz açan A.Kərimov iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini vurğulayıb.

Fuad Nağıyev Azərbaycan və Türkiyə arasında turizm sahəsində əməkdaşlıqdan, azad olunmuş ərazilərdə turizm infrastrukturunun qurulmasında türkiyəli mütəxəssislərlə işbirliyindən bəhs edib.

Professor Ferhat Pirinççi Şuşa Bəyannaməsinin regional önəmini vurğulayaraq qeyd edib ki, sülhün alternativi yoxdur. Ermənistan bunu anlamalı, regional əməkdaşlıqdan özünü təcrid etməməlidir.

***

Üçüncü panel müzakirəsində Türkiyənin xarici işlər nazirinin müavini Yavuz Selim Kıran, Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov, Türkiyənin milli müdafiə nazirinin müavini Muhsin Dere, Azərbaycanın müdafiə nazirinin müavini, Quru qoşunlarının komandanı, general-leytenant Ənvər Əfəndiyev, Baxçaşəhər Universitetinin müəllimi, terrorizm və təhlükəsizlik üzrə ekspert Abdullah Ağar və Milli Məclisin üzvü Ramil Həsən çıxış ediblər.

Yavuz Selim Kıran qeyd edib ki, ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə qaldırılan əlaqələrimizi formalaşdıran bu iradə bundan sonra da davam edəcək.

Xələf Xələfov çıxışında vurğulayıb ki, Şuşa böyük Zəfərimizin rəmzidir. Nazir müavini Şuşa Bəyannaməsinin hər iki dövlətin gələcəyi üçün önəmindən bəhs edib.

Sonda konfrans iştirakçıları xatirə şəkli çəkdiriblər.

# İrsin idarəedilməsində bacarıqların inkişafı

## UNESCO konvensiyasına dair treninq

UNESCO-nun Dünya mədəni və təbii irsinin qorunmasına dair 1972-ci il Konvensiyası çərçivəsində Bakıda “İrsin idarəedilməsi bacarıqlarının inkişafı” mövzusunda treninq keçirilib. İyunun 13-də başlayan təlim proqramı dörd gün davam edib.



Açılışda çıxış edən təlim proqramının rəhbəri, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası İdarə heyətinin sədri Vasif Eyvazzadə Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Memarlıq və İnşaat Universiteti nümayəndələrinin ilk dəfə irsin idarəedilməsi mövzusunda belə bir layihədə iştirak etdiyini bildirib. Qeyd edib ki, bu amil ümumi və birgə fəaliyyət üçün yaxşı zəmin yaradacaq. V.Eyvazzadə daha sonra UNESCO-nun müvafiq konvensiyası, sahə üzrə idarəetmə orqanları, Dünya irsi siyahısı, məşvərətçi təşkilatlar, Azərbaycanın bu proseslərdə rolu barədə təqdimatla çıxış edib.

Tədbirdə çıxış edən Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli təlim təşəbbüsünü yüksək qiymətləndirərək, ölkəmizdə bu sahə üzrə ekspertlərə böyük ehtiyac olduğunu deyib. İşğaldan azad olunan ərazilərdə mədəni irsin inventarlaşdırılması və bərpası ilə bağlı nazirliyin qarşısında böyük vəzifələrin durduğunu qeyd edən A.Cəfərli gələcəkdə digər konvensiyalarla bağlı belə təlimlərin təşkilinin vacibliyini də diqqətə çatdırıb.

V.Eyvazzadə UNESCO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair 2003-cü il, silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunmasına dair 1954-cü il, mədəni özünüifadə müxtəlifliyinin qorunması və inkişafına dair 2005-ci il və mədəni mülkiyyətin qanunsuz dövriyyəsi ilə bağlı 1970-ci il konvensiyaları çərçivəsində də təlim modullarının hazırlandığını və yaxın zamanda həyata keçiriləcəyini diqqətə çatdırıb.

Tədbir “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, mədəni irs üzrə ekspert Elsevər Məmmədovun “İrs idarəetməsinə giriş və idarəetmənin effektivliyi və qiymətləndirilməsi” mövzusunda təlimi ilə davam edib. O, təmsil etdiyi qurumun və eləcə də Dünya irsi siyahısında olan bəzi obyektlərin timsalında idarəetmə ilə bağlı yanaşmalar/ssenarilər, idarəetmənin planlanması, icrası və monitorinqinə dair vacib bilgiləri iştirakçılarla bölüşüb.

Təlimin yekununda interaktiv metodlardan istifadə edilməklə konkret nümunələr üzərindən sual-cavab sessiyası keçirilib.

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin sifarişi, Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin tərəfdaşlığı və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının dəstəyi ilə reallaşan treninq 4 əsas mövzuya həsr olunub: Milli/yerli kimliyi əks etdirən və cəmiyyətin iqtisadi inkişafına töhfə verən yerlər kimi mədəni irsdə ən yaxşı təcrübələr; Mədəni irs siyasəti və institutları. Konvensiyadan mövzular və qeydlər; Maddi və qeyri-maddi irs və dayanıqlı inkişaf; Mədəni irsin cəmiyyətin sosial-mədəni inkişafında rolu (ən yaxşı təcrübələr, çağırışlar və imkanlar). Treninq iştirakçılarının bu sahədə səriştə və bacarıqlarının artırılması, həmçinin ölkəmizin beynəlxalq mədəniyyət və yaradıcılıq fəaliyyətlərinin səmərəli təşkilinə töhfə verəcək.

# “Milli qurtuluş. Zəfər yolu”




Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Milli qurtuluş. Zəfər yolu” adlı tədbir təşkil edilib.

Kitabxananın direktoru Aslan Cəfərov qonaqları salamlayaraq, müstəqil Azərbaycanın müqəddəratında dönüş nöqtəsi kimi səciyyələndirilən Qurtuluş Gününün ölkəmizin, dövlətimizin tarixində müstəsna əhəmiyyətindən danışıb.

Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor Jalə Əliyeva ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışını xalqımızın xilası olduğunu, məhz onun sayəsində Azərbaycan Respublikasının dünya xəritəsindən silinmək təhlükəsindən qurtulduğunu qeyd edib. O, kitabxanalarda bu mövzulu tədbirlərin təşkilinin əhəmiyyətini qeyd edərək bildirib ki, şahidi olduğumuz tarixi gerçəklikləri yetişməkdə olan gənc nəslə təbliğ etməliyik.

Tədbirdə daha sonra çıxış edən AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, A.Bakıxanov adına Tarix İnstitutunun direktor müavini, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, millət vəkili, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərov, filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlilli, BDU-nun müəllimi Fəxriyyə İsayeva, politoloq Elşad Həsənov ulu öndər Heydər Əliyevin dahi siyasətçiyə, əsl liderə malik xüsusiyyətlərindən, mədəniyyətə, ədəbi irsə, elmə diqqət və qayğısından bəhs ediblər.

# Mədəniyyət Nazirliyində Qətər səfiri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov iyunun 13-də Qətər Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Faisal bin Abdullah Al-Hanzab ilə görüşüb. Görüşdə Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov da iştirak edib.

Görüş zamanı ölkələrimiz arasındakı mədəni əlaqələrin möhkəmləndirilməsi və bu sahədə əməkdaşlığın vacibliyi vurğulanıb.



Anar Kərimov işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasında Qətər dövlətinin infrastruktur sahəsində təcrübəsindən faydalanmağın əhəmiyyətindən bəhs edib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən “Bakı Prosesi” təşəbbüsü çərçivəsində 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumuna diqqət çəkib. Ölkəmizin 2021-ci ildə irəli sürdüyü “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal kampaniyasından söz açan nazir bildirib ki, kampaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Anar Kərimov Qətəri də bu qlobal çağırışa qoşulmağa dəvət edib.

Görüşdən məmnunluğunu ifadə edən Abdullah Al-Hanzab ölkələrimiz arasında humanitar və mədəni əməkdaşlıq məsələlərinə toxunub. Diplomat nazir Anar Kərimovu ölkəsinə rəsmi səfərə dəvət edib.

Görüş tərəfləri maraqlandıran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Bəzi tarixi günlər xalqın gələcəyini müəyyən edir

İyunun 14-də Milli Kitabxanada 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş tədbir keçirilib.




Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək bildirib ki, bəzi tarixi günlər xalqın gələcəyini müəyyən edən böyük başlanğıcların əsasını qoyur. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyun tarixi də belə günlərdən biridir. Ümummilli lider Heydər Əliyevin həmin tarixdə hakimiyyətə qayıdışı Azərbaycanı böyük bəladan – dövlətçiliyin dağılması və parçalanma təhlükəsindən xilas etdi. Müstəqil Azərbaycan dövləti var olduqca, Heydər Əliyevin əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq.

Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Akif Marifli bildirib ki, Heydər Əliyevin Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olub. Ümummilli liderin ən böyük xidmətlərindən biri də onun yolunu layiqincə davam etdirəcək lideri yetişdirməsidir. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında müstəqil dövlət kimi dünyada nüfuz qazanıb. Azərbaycan xalqı çox şanslıdır ki, Heydər Əliyev kimi bir ümummilli lideri və İlham Əliyev kimi Prezidenti var.

Tədbir zamanı Milli Kitabxananın Milli Qurtuluş Gününə həsr olunmuş virtual sərgisi təqdim edilib.

Sonda iştirakçılar “15 İyun – Milli Qurtuluş Günü” adlı ənənəvi kitab sərgisi ilə tanış olublar.

# Tankçı şair – şəhid leytenant Murad Nağıyev haqqında kitabın təqdimatı

İyunun 14-də Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Bakı Kitab Mərkəzində qəhrəman tankçı, şəhid leytenant, şair Murad Nağıyevə həsr edilən “Murad” adlı kitabın təqdimatı keçirilib. “Təhsil” nəşriyyatında işıq üzü görən kitabın tərtibçisi Banu Hümbətli, Sərxan Nağıyev, redaktoru İbrahim İlyaslıdır.

Tədbirdə şəhidin ailə üzvləri, yaxınları, Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin əməkdaşı İslam Hüseynov, “Təhsil” nəşriyyatının baş direktoru Tural Axundov və başqa qonaqlar iştirak ediblər.



Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova Vətən müharibəsi şəhidir Murad Nağıyevin keçdiyi həyat və döyüş yolundan bəhs edən kitab haqqında məlumat verib. Diqqətə çatdırıb ki, kitabda Murad Nağıyevin qələmə aldığı şeirlər də oxuculara təqdim olunur.

Şəhidin döyüş yoldaşı olmuş baş leytenant Namiq Səfərov bildirib ki, Murad Nağıyev Vətən müharibəsində Füzuli, Cəbrayıl, Zəngilan və Hadrut istiqamətlərində döyüşlərdə qəhrəmanlıq göstərib. 2020-ci il oktyabrın 11-də Cəbrayıl rayonu ərazisində döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Tədbirdə daha sonra kitabın redaktoru İbrahim İlyaslı, Murad Nağıyevin təhsil aldığı 271 saylı orta məktəbin direktor müavini Rüxsarə Əlizadə, aktyor Kamran Ağabalayev, Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı və şəhidin ailə üzvləri çıxış ediblər.

Ağdam Muğam məktəbi şagirdlərinin ifasında “Qarabağ şikəstəsi”, “Xudayar təsnifi” səslənib. Respublika Uşaq Kitabxanasının əməkdaşları kitabdan şəhid Murad Nağıyevin şeirlərini oxuyublar.

**S.Fərəcov**

# Sabirin satiraları müsəlman Şərqində intibah, oyanış səsləri idi...

## Şamaxıda Sabir poeziya günü




əvvəli səh. 1-də

Sonra böyük sənətkarın ev-muzeyi və adını daşıyan parkdakı heykəli də ziyarət olunub.

Şamaxı rayon Mədəniyyət Mərkəzində gerçəkləşən konfransın moderatoru AYB Şirvan bölməsinin rəhbəri, yazıçı Orxan Fikrətoğlu sözü Xalq yazıçısı Anara verib. AYB-nin sədri şairin satiralarını müsəlman Şərqində bir intibah, oyanış kimi qiymətləndirib, Sabir poeziyasının ölməzliyini, bənzərsiz söz ustadının fikirlərinin hər zaman aktual olduğunu diqqətə çatdırıb. Anar Sabirin uşaq şeirlərindən nümunələr söyləyib, bu poetik örnəkləri hər bir azərbaycanlının əzbər bildiyini deyib.

Mirzə Ələkbər Sabir Fondunun rəhbəri, şairin nəvəsi Sevda Tahirli elmi-praktik konfransın təşkilatçılarına təşəkkürünü bildirib, rəhbərlik etdiyi fondun həyata keçirdiyi layihələr barədə məlumat verib. O, şairin 160 illiyinə həsr olunan filmin çəkildiyini və filmdə sovet dönəmində Sabir yaradıcılığına yanlış yanaşmanın olduğunu söyləyib.

Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov Sabirə göstərilən dövlət qayğısından, ustad sənətkara olan xalq məhəbbətindən söz açıb.

Konfransda çıxış edən "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, AYB-nin katibi İlqar Fəhmi, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Abid Tahirli və başqaları 1961-ci ildən başlayaraq hər il şairin doğum günündə keçirilən "Sabir poeziya günləri"nin əhəmiyyətindən danışıblar.

Tədbirdə gənc yazarlar Sabirə həsr etdikləri şeir və qəzəllərini səsləndiriblər.

# Lənkəran şəhərinin mədəni inkişaf strategiyası təqdim olundu

əvvəli səh. 1-də

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Mikayıl Cəfərzadə təqdimatın şəhər üçün əhəmiyyətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, layihə regionda mədəniyyətimizin təbliği və təşviqində vacib rol oynayacaq. Həmçinin diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Lənkəran şəhərində bir sıra tədbirlər həyata keçirilib. Yol infrastrukturunun qurulması, müasir tələblərə cavab verən müəssisələrin inşası və sahibkarlığın inkişafına yönəldilmiş işləri misal çəkə bilərik. Mədəniyyət Nazirliyinin təşəbbüskarı olduğu "EU4Culture" layihəsinin Lənkəranda icrasını yüksək qiymətləndirdiklərini deyən M.Cəfərzadə təşkilatçılara təşəkkürünü bildirdi.

Təqdimatda çıxış edən Avropa İttifaqının "EU4Culture" layihəsinin yerli əlaqələndiricisi Firuzə Bağır diqqətə çatdırdı ki, 2021-ci ilin may ayında elan edilən proqram Şərq Tərəfdaşlığı ölkələrində qeyri-paytaxt və regionlara xüsusi diqqət yetirməklə mədəniyyət və yaradıcı sektoru dəstəkləmək üçün Avropa İttifaqı tərəfindən maliyyələşdirilən dördillik layihədir. Layihənin ölkəmiz üzrə həyata keçirilməsində tərəfdaş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyidir: "Layihə çərçivəsində alınan qrant hesabına şəhərlər üçün mədəniyyət strategiyası hazırlanacaq. Gələcəkdə növbəti mərhələdən uğurla keçəcək şəhərlər üçün strategiyanın



həyata keçirilməsi məqsədilə 300 min avro qrant ayrılması nəzərdə tutulub. Təqdim olunan müraciətlər qiymətləndirildikdən sonra ölkə üzrə Şəki, Xırdalan və Lənkəran şəhərləri öz mədəni inkişaf strategiyalarını hazırlamaq üçün 30 min avro qrant qazanıblar. Lənkəran şəhərindən layihəyə Lənkəran Regional Mədəniyyət İdarəsi müraciət edib".

Sonra "EU4Culture" layihəsi çərçivəsində Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmış Lənkərana həsr olunan videoçarx nümayiş etdirildi.

Daha sonra Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov şəhərin mədəniyyət strategiyasını təqdim etdi. Bildirdi ki, Lənkəran öz yerli sakinləri və onu ziyarət edən qonaqlar üçün mədəni, sosial və iqtisadi cəhətdən inkişaf edən tolerant, aktiv və canlı şəhərdir. Layihədə "Niyə Lənkəranın qalib gəlməsi vacibdir?" fikrini isə idarənin rəisi regionun zəngin və multikultural mədəniyyəti, yüksələn iqtisadi və inkişaf edən nəqliyyat, turizm infrastrukturu, unikal qastronomiya (Lənkəran qastronomiya tematikası üzrə 2021-ci ildən UNESCO-nun Yaradıcı şəhərlər şəbəkəsinin üzvüdür), multietnik yaradıcı mühit və zəngin yaradıcılıq praktikası ilə əlaqələndirdi.

Şahin Şahbazov strategiya çərçivəsində qastronomiya, folklor, musiqi, sənətkarlıq və s. istiqamətlər üzrə şəhərin potensialı haqqında geniş məlumat verdi. Diqqətə çatdırdı ki, strategiyanın fəaliyyətləri bölməsində il ərzində həftə sonlarında 2-3 günlük festivalların təşkili, 2024-cü ilin sonuna qədər 24 festivalın keçirilməsi qarşıya məqsəd qoyulur.

Strategiyanın reallaşması üçün əsas layihə komandasına dəstək mədəniyyət liderlərindən ibarət yerli qrup tərəfindən təmin olunacaq və onlar gələcəkdə "Kreativ Lənkəran platforması"nı da idarə edəcəklər. Layihənin icraçısı Lənkəran Regional Mədəniyyət İdarəsi, əsas tərəfdaş Lənkəran Rayon İcra Hakimiyyətidir. Digər tərəfdaşlar sırasında Dövlət Turizm Agentliyinin Lənkəran Destinasiya Menecmenti Təşkilatı, Kiçik və Orta Biznesin İnkişaf Agentliyi (KOBİA), Lənkəran KOB İnkişaf Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Lənkəran nümayəndəliyi, Azərbaycan Milli Kulinariya Assosiasiyası, Lənkəran Dövlət Universiteti, "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, Kreativ Azərbaycan Platforması, Azərbaycan Film Komissiyası və "Azərxalça" ASC-dir.

Milli Kulinariya Assosiasiyasının rəhbəri, Əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanov strategiya ilə bağlı fikirlərini bölüşdü. Qrantda Lənkəranın qalib gəlməsi üçün regionun özəl xüsusiyyətlərini vurğulayaraq belə bir təşəbbüsün reallaşmasında əməyi olan hər kəsə minnətdarlığını ifadə etdi.

Təqdimatdan sonra fikir mübadiləsi aparıldı və gələcək planlarla bağlı təkliflər müzakirə edildi. Tədbir iştirakçıları həmçinin yerli sənətkarların əl işlərindən ibarət sərgi ilə də tanış oldular.

**Lalə**

# Tariximizin dönüş anı – Milli Qurtuluş Günü




1993-cü ilin 15 iyunu müstəqilliyini yeni qazanmış, ancaq onu itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycanın xilas günüdür. Tariximizin bu əlamətdar səhifəsi – Milli Qurtuluş Günü, hər il olduğu kimi, bu il də təntənə ilə, müxtəlif tədbirlərlə qeyd edildi. Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində də rəngarəng tədbirlər keçirilib, tariximizin şanlı səhifəsinə yenidən nəzər salınıb.

Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) Gəncə şəhər Heydər Əliyev Mərkəzi, şəhər 4 nömrəli Uşaq musiqi məktəbi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialının birgə təşkilatçılığı ilə "Milli qurtuluşun Zəfər yolu" mövzusunda ədəbi-bədii gecə keçirilib. Tədbirdə Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, Milli Məclisin deputatı Pərvin Kərimzadə, YAP Gəncə şəhər təşkilatının sədr müavini Nurəddin İbrahimov və digər qonaqlar iştirak ediblər. Gəncə şəhər Heydər Əliyev Mərkəzinin direktoru Arif Marifli əlamətdar günün tarixindən danışıb. Musiqi məktəbinin müəllim və şagirdləri musiqi nömrələri ilə çıxış ediblər. Sonra sərgiyə baxış olub.

İyunun 15-də Gəncə RMİ-nin təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyəti və YAP şəhər təşkilatının dəstəyi ilə Heydər Əliyev Mərkəzində Milli Qurtuluş Gününə həsr olunmuş "Pianoçular festivalı" keçirilib. Festivalda şəhər İncəsənət məktəbi, 1, 2, 3, 4 və 5 nömrəli Musiqi məktəbləri, Samux rayon Sərkar kənd Musiqi məktəbinin müəllim və şagirdləri, eləcə də Əməkdar artist Kəmalə Tağızadə və Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərovanın ifaları dinlənilib. Festivalda iştirak edən müəllim və şagirdlər fəxri fərmanlarla təltif ediliblər.

RMİ-nin əhatə etdiyi Goranboy Rayon Tarix-Diyarşünaslıq Muzeyi və 1 saylı Sənətkarlıq klubunun təşkilatçılığı ilə "Qayıdışdan doğan güneş" adlı tədbir keçirilib. Muzeyin fond mühafizi Ulduz Bağırova ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının çətin sınaqlar dövründə siyasi hakimiyyətə qayıdaraq ölkəni bəladan xilas etməsindən danışıb.

***

Biləsuvar RMİ Biləsuvar rayon Heydər Əliyev Mərkəzində "Azərbaycan dövlətinin xilaskarı" adlı dəyirmi masa keçirilib. Mərkəzin əməkdaşı Zahidə Heydərzadə dövlətçilik tariximizdə ulu öndərin misilsiz xidmətlərindən bəhs edib. Bildirib ki, dövlətimizin əldə etdiyi bugünkü uğurların bünövrəsi məhz Heydər Əliyevin fəaliyyətdə olduğu dövrdə qoyulub.



Salyan Rayon Heydər Əliyev Mərkəzində keçirilən "Qurtuluşumuzun memarı" adlı tədbirdə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən söhbət açılıb. Sonda Qurtuluş Gününə həsr olunmuş sərgiyə baxış keçirilib.

***

Milli Qurtuluş Günü münasibətilə Ağstafa RMİ Ağstafa Dövlət Rəsm Qalereyasında rəsm dərnəyi üzvlərinin əl işlərindən ibarət "Tariximizin dönüş anı" başlıqlı sərgi təşkil olunub.

***

Xaçmaz RMİ Xaçmaz rayon Heydər Əliyev Mərkəzində "Hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirən Heydər Əliyev" mövzusunda tədbir keçirilib. Tədbiri mərkəzin direktoru Könül Əskərova açıb. Xaçmaz rayon C.Cəbiyev adına Nərəcan kənd və İstisu qəsəbə tam orta məktəbi şagirdlərinin ifalarında şeirlər və musiqi nömrələri səsləndirilib. Sonda "Şuşa İli" münasibətilə məktəblilər arasında keçirilən "Şuşa – müqəddəs şəhər" adlı yaradıcılıq müsabiqəsinin qalibləri və iştirakçıları mərkəzin diplomları ilə təltif olunublar.

***

Şəki RMİ Şəki şəhər Heydər Əliyev Mərkəzində Milli Qurtuluş Günü ilə əlaqədar təntənəli bayram tədbiri keçirilib. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, 1993-cü ilin 15 iyun tarixi xalqımız üçün qurtuluş anıdır. Bu tarixi yaradan isə ümummilli lider Heydər Əliyevdir. Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbi müəllimlərinin hazırladığı musiqi nömrələri tədbirə rəng qatıb.

Qax rayon Almalı kənd Mədəniyyət evində "Azad və çiçəklənən doğma yurdum Azərbaycan" adlı tədbir keçirilib. Şagirdlərin hazırladığı ədəbi-bədii kompozisiya alqışlarla qarşılanıb.

***

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Azərbaycan xalqının xilaskarı – Heydər Əliyev" mövzusunda dəyirmi masa keçirilib. Muzeyin direktoru Əntiqə Tağıyeva ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın qazandığı bugünkü Zəfərdən danışıb. MKS-nin İnformasiya şöbəsinin müdiri Rasif Dadaşov mövzu ilə bağlı məruzə edib. Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, MKS-nin direktoru Əlhəddin Nəzərovun çıxışları dinlənilib.

***

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynova, şəhid Zamin Balakişiyevin anası Bikəxanım Balakişiyeva çıxış edərək ulu öndər Heydər Əliyevin Vətəni və xalqı qarşısında tarixi xidmətlərindən danışıblar. Mərkəzdə ümummilli liderin həyatını və siyasi fəaliyyətini əks etdirən ekspozisiyaya baxış keçirilib.

Sabirabad rayon Mədəniyyət Mərkəzində də əlamətdar günlə bağlı toplantı keçirilib. Tədbirdə YAP rayon təşkilatının sədri Varis Rüstəmov, RMİ-nin rəisi Fərid Qurbanzadə və digər çıxış edənlər ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından, onun layiqli davamçısı Prezident İlham Əliyevin mədəniyyət sahəsinə göstərdiyi diqqət və qayğıdan söhbət açıblar.





Hacıqabul rayon Heydər Əliyev Mərkəzində "Qurtuluşumuzun memarı" adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə mərkəzin direktoru Aytən İmanova açaraq qeyd edib ki, ulu öndərin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqı ikinci dəfə əldə etdiyi müstəqilliyi itirmək, parçalanmaq, məhv olmaq təhlükəsindən azad olub. Digər çıxış edənlər də Milli Qurtuluş Gününün tarixindən, Azərbaycanın taleyindəki rolundan söz açıblar. Sonra konsert proqramı təqdim edilib, sərgiyə baxış olub.



***






Ağcabədi RMİ Ağdam rayon Heydər Əliyev Mərkəzində (Quzanlı qəsəbəsi) Ağdam Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə əlamətdar gün münasibətilə tədbir keçirilib. Mərkəzin fond mühafizi Elçin Cəfərov çıxış edərək deyib ki, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıdıb və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas edib.

***

Ağdaş RMİ-nin tabeliyindəki Göyçay rayon Rəsul Rzanın Ev-Muzeyində "15 iyun – Azərbaycanın taleyini dəyişən zəfər tarixi" mövzusunda tədbir keçirilib. Şəhər 6 saylı tam orta məktəbin bir qrup müəllim və şagirdinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan muzeyin direktoru Solmaz Həsənova qeyd edib ki, 15 iyun Azərbaycan xalqı, dövləti üçün unudulmaz özünə qayıdış günüdür. Tədbirdə məktəblilərin hazırladıqları kompozisiya maraqla qarşılanıb.

Ucar Rayon Tarix-Diyarşünaslıq Muzeyində Milli Qurtuluş Günü ilə əlaqədar məktəblilər üçün müsabiqə təşkil edilib. Tədbirdə Qazyan kənd 2 nömrəli tam orta məktəbin bir qrup müəllim və şagirdi iştirak edib. Muzeyin bələdçisi Afət Kərimova "Dövlətçilik tariximizin şanlı və qürurlu səhifəsi" adlı mühazirə ilə çıxış edib.

***

İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev Mərkəzində "Qurtuluşdan Zəfərə gedən yol" mövzusunda konfrans keçirilib. RMİ-nin rəisi Elçin Nəcəfov, İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini Sevil Əhmədova, Şamaxı rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Eyvazova, II Qarabağ müharibəsi şəhidi, mayor Sübhi Mürsəliyevin anası Cəmilə Mürsəliyeva, Qəbələ rayon Heydər Əliyev Mərkəzinin direktoru Fuad Qasımzadə, İsmayıllı rayon Mücəftəran kənd tam orta məktəbinin müəllimi Ülvi Osmanlı çıxış ediblər.

İsmayıllıdakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzində Akademik Opera və Balet Teatrının solisti, Xalq artisti Fidan Hacıyevanın rəhbərlik etdiyi "Mezzo" qadın orkestrinin Milli Qurtuluş Gününə həsr olunmuş konserti keçirilib. Rayon İcra Hakimiyyəti və İsmayıllı RMİ-nin birgə təşkilatçılığı ilə keçirilən bayram konsertində rayon Mədəniyyət Mərkəzi solistləri, F.Əzimov adına İncəsənət məktəbinin müəllim və şagirdləri də çıxış ediblər.

Qəbələ rayon Heydər Əliyev Mərkəzində Milli Qurtuluş Gününə həsr olunmuş "Azərbaycanın taleyini dəyişən zəfər" adlı şeir qiraəti müsabiqəsi keçirilib. Şagirdlər Milli Qurtuluş Günü və ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeirlər səsləndiriblər.

Qəbələ Dövlət Rəsm Qalereyası tərəfindən rayon Mədəniyyət Mərkəzində "Xalqın xilaskar oğlu" adlı rəsm sərgisi təşkil edilib.

***

Sumqayıt RMİ və YAP Sumqayıt şəhər təşkilatı "Azərbaycan mədəniyyəti Milli Qurtuluşun işığında" mövzusunda konfrans keçirib. Konfransı YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov açıb. Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev çıxış edərək Milli Qurtuluş Günü ilə başlanan yolun Azərbaycanı hərtərəfli inkişafa apardığını deyib. Sumqayıt Şəhər İcra Hakimiyyətinin əməkdaşı Fərman Kazımov, Sumqayıt şəhər F.Əmirov adına 5 nömrəli Musiqi məktəbinin direktoru Vaqif Süleymanov, Sumqayıt MKS-nin direktoru Yeganə Əhmədova və başqalarının çıxışları dinlənilib.

Sumqayıt RMİ Şuşa rayon nümayəndəliyinin əhatə etdiyi musiqi məktəblərinin Milli Qurtuluş Gününə həsr olunan hesabat konserti keçirilib. Maraqla qarşılanan konsertin sonunda Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov və RMİ-nin rəisi Rəşad Əliyev məktəblərin kollektivlərinə uğurlar arzulayıblar.

# Hacıbaba Bağırovun anadan olmasının 90-cı ildönümündə məzarı ziyarət edilib

İyunun 12-də görkəmli teatr və kino aktyoru, Xalq artisti Hacıbaba Bağırovun (1932-2006) anadan olmasının 90-cı ildönümü tamam oldu. Bu münasibətlə II Fəxri xiyabanda sənətkarın məzarı ziyarət edilib.



Məzarın önünə Mədəniyyət Nazirliyinin, sənətkarın uzun illər aktyor kimi çalışdığı, həmçinin bir müddət rəhbərlik etdiyi Azərbaycan Dövlət Akademik Musiqili Teatrının adından əklillər qoyulub.

Mədəniyyət Nazirliyi Teatr sektorunun müdiri Könül Cəfərova, teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, Xalq artistləri Afaq Bəşirqızı, Fatma Mahmudova, Əməkdar artistlər Ələkbər Əliyev, Çingiz Əhmədov, Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, digər çıxış edənlər unudulmaz sənətkarın həyat və yaradıcılığından söz açaraq onunla bağlı xatirələrini bölüşüblər.

Diqqətə çatdırılıb ki, Hacıbaba Bağırov yaratdığı və özünəməxsus yumorla oynadığı rollar teatr və kino tariximizin səhifələrini zənginləşdirib. Həyata 74 yaşında əlvida deyən aktyorun yaradıcılıq yolu sənətə yeni gələn gənclər üçün məktəb olaraq qalacaq.

Qeyd edək ki, iyunun 12-də Akademik Musiqili Teatrda Hacıbaba Bağırovun 90 illik yubileyi münasibətilə "Mən dəyərəm min cavana" (F.Sücəddinov, T.Vəliyeva) tamaşası nümayiş olunub.

Bu tamaşa H.Bağırovun sağlığında onun 75 illik yubileyi münasibətilə hazırlanıb. Tamaşanın premyerasına az qalmış, 2006-cı ilin oktyabrında aktyor vəfat etdiyinə görə 2007-ci ildə "Mən dəyərəm min cavana" tamaşası mərhum sənətkarın xatirəsinə ithaf olunaraq onu sevənlərə təqdim edilib. Tamaşa səhnəyə qoyulduğu gündən maraqla qarşılanır və 81-ci dəfə nümayiş olunub.

Teatrın foyesində aktyorun "O olmasın, bu olsun" musiqili komediyasında oynadığı Məşədi İbad (1998), "Bankir adaxlı"da Atakişi (2002), "Adamın adamı"nda Əli Əyrizadə (2005), "92 dəqiqə gülüş" konsert-kompozisiyasında Sonqulu (2004) obrazlarının səhnə geyimləri də sərgilənib.

# BMA ilə Ferens List Musiqi Akademiyası arasında memorandum imzalanıb

İyunun 13-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) və Macarıstanın Azərbaycandakı Səfirliyinin birgə əməkdaşlığı ilə macar musiqisinin klassiki, məşhur bəstəkar, virtuoz pianoçu Ferens Listə (1811-1886) həsr olunmuş tədbir keçirilib.

Tədbirdə BMA ilə Ferens List Musiqi Akademiyası arasında anlaşma memorandumu imzalanıb.

Tədbir çərçivəsində həmçinin F.Listin tanınmış heykəltaraş, Xalq rəssamı Natiq Əliyev tərəfindən hazırlanmış büstünün açılışı olub.

BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli bildirib ki, imzalanan memorandum iki ölkə arasında mədəni əlaqələrin inkişafına töhfə olacaq.

Macarıstanın Azərbaycandakı səfiri Viktor Sederkenyi bu cür tədbirlərin iki dost ölkənin münasibətlərinin daha da möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb.

Xalq rəssamı Natiq Əliyev müəllifi olduğu büstün BMA-da açılmasını əlamətdar hadisə kimi dəyərləndirib. Bildirib ki, yaxın zamanlarda digər dünya şöhrətli bəstəkarların da, həmçinin ölkəmizin tanınmış bəstəkar və musiqiçilərinin də BMA-da büstləri açılacaq.

Tədbir BMA-nın və Bülbül adına Orta İxtisas Musiqi Məktəbi tələbələrinin ifasında macar bəstəkarının əsərlərindən ibarət konsert proqramı ilə davam edib.

# 75 yaş hesabat rəqəmidir

## Yaxud sənət həm də zəhmət istəyir...

**Bütün insanların musiqiyə ehtiyacı var. Bu ehtiyac bəlkə də insan yaranandan mövcuddur. İllər ötür, amma sevdiyimiz melodiyalar mahnılar bizimlə qalır. Bunu bizə bəxş edən bəstəkarlardır. Onların yeddi notdan yaratdıqları möcüzələr qəlbimizdə iz salır, ən kədərli və sevincli anlarımızda duyğularımıza tərcüman olur...**

Tanınmış bəstəkar, Xalq artisti, Prezident təqaüdçüsü Faiq Sücəddinov da hisslərimizə həmdəm olan mahnılar müəllifidir. Sənətkar iyunun 14-də 75 illik yubileyini qeyd etdi.

Faiq Sücəddinovun nəğmələri kənar sifarişdən deyil, daxili tələbatdan, istedadının diktəsi olan əsərlərdir. O, musiqiyə formal yanaşmır. Bəstəkarın mahnıları ruha toxunan şeirlə melodiyanın vəhdətidir. Bəzən siz mahnıya qulaq asırsınız və o, sadə, uyğunsuz sözlər toplusuna bənzəyir. Belə əsərlər geniş yayıla, ictimaiyyət tərəfindən sevilə bilməz. O isə mahnıda sözü əsas hesab edir. Bəxtiyar Vahabzadə, Cabir Novruz, Nəbi Xəzri, Fikrət Qoca, Baba Vəziroğlunun sözlərinə yazdığı mahnılar hər zaman populyar olub. Çünki musiqi qədər sözlərə də həssas yanaşıb. Məharət, istedad və ruhun ən səmimi hissləri bir araya gələndə bu mahnını ifa edən sənətçilərin taleyində də hadisəyə çevrilir, yeni yol açır.

Bəstəkarın yüksək zövq və qaynar vətənpərvərlik xarakteri ilə dolu çoxlu mahnıları var. Musiqişünas Leyla Zöhrabova onun haqqında yazır: "Faiq Sücəddinovun əsərlərinin populyar olması hər şeydən əvvəl onun melodiyasının gözəlliyindədir. Axı, hər bir əsərin əsasında melodiya durur. Məhz Faiq Sücəddinovun əsərlərinin də əsasını füsunkar, öz gözəlliyi ilə seçilən melodiya təşkil edir. Bəli, gözəl melodiya insanın ruhunu oxşayaraq onu yaşamağa, sevməyə sövq edir. Burada böyük rus bəstəkarı D.Şostakoviçin sözləri yada düşür: "Melodiya fikir, hərəkət, musiqi əsərinin ürəyi deməkdir".

Bəstəkarın dünyagörüşü də xüsusidir. Yaralı qəlblərin gizli mənasına bəlkə də ancaq bəstəkar nüfuz edə bilər. O, melodiyanın şahidir! Faiq Sücəddinovun melodiyaları dərhal tanınır. Allah sizə yüksək musiqi duyumu bəxş etməsə də, yenə ruhunuzun dərinliklərində "Əgər məni unutsan", "Ana torpaq", "Ay sevgilim", "Vətəndən pay olmayır", "Nəğmə olmaq istəyirəm, ay ana" mahnılarının möhtəşəm motivlərini daxilən belə oxumağa əmin olacaqsınız. Bəstəkarın mahnı yaradıcılığında Rəşid Behbudov, Gülağa Məmmədov, Akif İslamzadə, Firəngiz Rəhimbəyova, Nisə Qasımova, İlhamə Quliyeva, Flora Kərimova ilə başlanan əməkdaşlığı bu gün gənc nəsil ifaçılarla davam edir.



Röyanın ifasında "Düşürsən tez-tez yada", Zamiqin oxuduğu "Kaman", Rəvanə Qurbanovanın ifasında "Sənə yarım dedim" sevilir, dinlənilir. Ona görə ki, bu musiqilərdə həyat eşqi, gənclik təravəti, işığı və zəngin emosiyalar, qəlboxşayan hisslər var.

Eyni zamanda virtuoz pianoçu olan Faiq Sücəddinov fortepiano üçün əsərləri (pyeslər, ballada, vals, vals-fantaziya, rəqs nömrələri) ilə də tanınır və sevilir. Bəstəkarın piano və simfonik orkestr üçün konserti, piano və kamera orkestri üçün konserti, xor və simfonik orkestr üçün "Atatürk" odası, müxtəlif tərkibli ansambllar üçün caz kompozisiyaları, "Mən dəyərəm min cavana" operettası, kamera orkestri üçün "Tokkata" və s. əsərləri yaradıcılığının zənginliyindən xəbər verir. Bəstəkarın doğma yurda sevgisini "Vətən" balladasında, mavigözlü dənizin füsunkarlığını "Xəzərin ləpələri"ndə, paytaxtın əsrarəngizliyini "Yeni Bakı" əsərlərində duymaq olur.

### Sənət ilham pərisini gözləmir...

Yubileyi ərəfəsində bəstəkarla həmsöhbət olub, bugünkü yaradıcılıq fəaliyyətinə qısa nəzər saldıq.

*– Faiq müəllim, müsahibələrinizdən birində deyirsiniz ki, uşaq vaxtı saatlarla piano arxasında olanda fikrim küçədə futbol oynayan uşaqlarda qalardı... Həmin illərə qayıtsaydınız, nəyisə dəyişmək istərdinizmi?*

– Təbii ki, uşaq öz uşaqlığını yaşamalıdır. Amma məşhur dirijorlardan hansısa deyib ki, hər bir uşaq musiqi ilə məşğul olmağa başlayanda o, sanki uşaqlığını itirir. O, bütövlükdə böyük musiqi aləminə daxil olur və uşaqlığını yalnız musiqiyə sərf edir. Təbii ki, sənətdə istedad başlıca şərtdir. Eyni zamanda sənət onunla saatlarla məşğul olmağı sevir. Çox əziyyətli və çox vaxt tələb edən sənətdir musiqi. Hətta kiçik həcmli əsər yazdığım zaman onu bir-iki gün öz süzgəcimdən keçirirəm. Bəlkə bir həftədən sonra onu işləməyə başlayıram.

*– Qəlb süzgəcindən keçən yeni bir əsəriniz varmı?*

– Ötən il "Zəfər" simfonik poemasını yazdım. Əsər Qələbəmizin birinci ildönümündə səsləndi. İnanın, günlərlə, həftələrlə yazıb-pozurdum. Hətta gecənin bir aləmində də oyanıb qeydlər edirdim. Nəhayət, əsər ortaya çıxdı.

*– Sənət olandan sonra ilham pərisi olmur deyirsiniz...*

– Sənət elə bir anlamdır ki, o ilham pərisini gözləmir. Bu sənətdir, sənin işindir, həyatındır. O, dağ mehini, çayların, şəlalələrin səsini gözləyib dura bilməz. Sənət həm də zəhmət istəyir. Sən əgər yazmalısansa, mütləq yazmalısan. Hətta ən ekstremal şəraitdə belə. Bəxtiyar Vahabzadə deyirdi ki, mənim hər otağımda dəftərim, qələmim, pozanım var. Mənim də maşınımda not dəftərim və qələmim var. Səs-küyə, şəraitsizliyə baxmayaraq, sənət hər yerdə sənətdir.

*– Yubileyinizi necə qeyd edəcəksiniz?*

– Mən, ümumiyyətlə, ad günlərini sevən insan deyiləm. Ailəm çərçivəsində qeyd edirəm. Yaş şərtidir. 75 illiyim, təbii ki, hesabat rəqəmidir. Noyabr ayında Heydər Əliyev Sarayında konsert verməyi planlaşdırıram. Simfonik orkestr, xor əsərlərim səslənəcək. Bu günlərdə "Şuşa" oratoriyamı bitirdim. Bundan əlavə, "Zəfər" simfonik poemam, xor kapellası üçün yazdığım "Azərbaycan rəqs inciləri" və romanslar. Konsertin ikinci hissəsində isə mahnılarım ifa ediləcək.

*– "Mədəniyyət" qəzetinin kollektivi adından yubileyinizi təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.*

– Çox sağ olun. Diqqətinizə görə minnətdaram.

**Lalə Azəri**





# Bir tənhanın göz yaşında durulmaq

İndi teatrla məşğul olmaq, bunu mənəviyyat məsələsinə çevirmək elə də asan iş deyil. Çünki səhnə sənəti ümumiklikdə yaradıcı sənaye kontekstində bəlkə də ən az gəlirli sahədir.

Dünyanın qlobal iqtisadi böhranla "çilingağac oynadığı" bu çətin vədədə lap dərvişlik kimidir bu iş. Sizi bilmirəm, amma mən qolunu bu işə görə çırmayanların əvəzinə də bir hovur darıxıb, bir çəltik yanıb-yaxılandan sonra onlara uğur arzulayıram. Ən azı çəpik çalanların səsi daha gur, qan-tərə batan səhnədəkilər və onlardan da çox təntiyən səhnə arxasındakıların könlü xoş olsun deyə. Çünki onların, mənə görə, ən böyük umacağı məhz təmənnasız tamaşaçı sevgisi və onun səsli ifadəsi – alqışıdır.

...Odur ki, yağışdan sonra hövlnak çıxıb, sonra itən göyqurşağı kimi aydınlanan adamlara qoşulub hamının asanlıqla "mənim teatrım" deyə biləcəyi sənət yuvasında ilk tamaşasının sorağına tələsdim.

Əslində, "M.Teatr" 2016-cı ildən fəaliyyət göstərir. Təbii ki, "laməkan". Onu yaradan və bu müddətdə çiyinlərində daşıyan, məkan-məkan dolaşıb, yükünü yüngülləşdirmək üçün hər ocaqda bir az dərindən nəfəs alan Xalq artisti, səhnə, sənət adamı Vidadi Həsənov, nəhayət, özünə, daha doğrusu, özündən çox şey fəda etdiyi teatrına məkan tapdı. Nə deyək, mübarək olsun. Tamaşaçısı çox olsun, ağqara səhnəsi daim rəngli sevgilər və işıqlarla nurlansın...

Kapitalist düşüncə bumunda teatra qucaq açmaq bu dəfə naşir Şahbaz Xuduoğluna nəsib olub. Nə xoş, ekməsi ki teatrı, səhnəni təkcə dəbdəbəli tamaşa salonlarından kənarda da sevənlər var. Belə olmasaydı, Qanun" Nəşrlər Evini bir də teatra yurd etməzdi.

İyunun 9-da nəşriyyatın binasında fəaliyyətə başlayan "M. Teatr"ın ilk tamaşasına ictimai baxış keçirildi. Sənət adamlarının və media nümayəndələrinin iştirak etdiyi tədbir bir çox məqamlarla yadda qaldı. Düşünürəm ki, bir-iki kəlmə ilə ab-havanı təsvir etmək olar. Deməli, tamaşa salonu sadə, əsl teatr ruhunda tərtib olunub. Kulis və arxası qara parça ilə pərdələnmiş kiçik səhnə tamaşaçı oturacaqlarından cəmi bir neçə santimetr hündürlükdədir. İzafi heç bir yükü, dəbdəbəsi yoxdur. Hər şeyə minimalist yanaşan tərtibatçılar (əslində, hamısı – ustası da, fəhləsi də elə özləri, "M. Teatr"ın kollektividir) tamaşaçı salonunu da eyni lada köklәyiblər. Divarlarda görkəmli teatr, sənət xadimlərinin ifadəli fotoları, arxa divarda teatrın sloqanı və oturduğun nömrəli skamyalar səni mütləq şəkildə bir əsr öncəyə "atır". Söykənəcəyi olmayan qara rəngli skamyalarda əyləşdiyin ilk dəqiqələrdən fikrin səhnədə qalır...

Bu dəfə çox gözləməli olmadıq. Teatrın yaradıcısı Vidadi Həsənov zəhmli və yorğun üzünə qonan xoş təbəssümlə hər kəsi salamladı. Sonra teatrı, onun ideyası, məqsəd və məramından danışdı. Bu günə qədər ərsəyə gətirdiyi tamaşalardan, onların vasitəsilə özünə ifadə imkanı tapan teatrın daimi və müvəqqəti truppasından, bir-iki kəlmə də gələcək xoş niyyətlərindən söz açdı.

Sonra ev-məkan sahibini səhnəyə dəvət etdi. Şahbaz Xuduoğlu "M. Teatr"ın rəhbərlik etdiyi nəşriyyatın binasında fəaliyyətə başlamasının qısa tarixçəsindən danışdı. Bildirdi ki, fəaliyyətini genişləndirən nəşriyyat indən belə bu zalda başqa mədəni tədbirlər də təşkil edəcək. Kitab təqdimatları, uşaqlar üçün nağıl axşamları, müəlliflərlə görüş və s.

Təqdimatdan sonra Vidadi Həsənovun quruluşunda "Vidalaşmadan getməyin" monotamaşası başladı.

Özündə "Bəlkə mən heç nə yaşamamışam?!" kimi ağır yüklü sual daşıyan səhnə işi, fərqli və maraqlı yanaşma üslubu olan mərhum Rövşən Ağayevin pyesi əsasında ərsəyə gəlib. Tamaşanın musiqisi Vüqar Məmmədzadəyə, plastik həlli Mikayıl Mikayılova məxsusdur, quruluşçu rəssamı Ülkər Əliyevadır. Ümumilikdə ona yaxın insanın əmək sərf etdiyi təkadamlıq oyun ağır mətləblərdən bəhs edir.

Aktyor Oktay Mehdiyevin canlı, həssas və təsirli ifası tənhalığa məhkum olunmuş yaşlı kişinin əzablarının təbii ifadəsi baxımından alqışa layiqdir.

Tamaşa boyu biz arvadını itirən və ötən müddət ərzində övladlarının da diqqət və qayğısından məhrum olan kişinin boş çərçivələrlə dialoqunu (əslində, monoloqunu) izləyirik. Maraqlıdır ki, bir an belə olsun darıxmırıq. Tənhalıqdan havalanmaq həddinə gələn, daha doğrusu, təkliyə qımızdan qocalıqda heç kimə lazım olmadığımızı. Daha doğrusu, özümüzü elə ilk özümüzün unutduğunu və yalnız yaşlandığımız zaman özümüz üçün yaşaya biləcəyimizi anlatdı. Amma nə olsun ki, yaşlananda da ələhəzrət tənhalıq sinəmizə çökür. Bizi doğmalarımız, yaxın-uzaq ətrafımız tək qoyanda özümüzlə baş-başa qala bilmirik. Əslində, bu, heç mümkün də olmur. Axı, ömrü boyu tənha qalmamaq üçün çalışan, özündən başqa hamı ilə dil tapan, dost, bəzən də düşmən olan adamın özü ilə nə alıb-verəcəyi ola bilər ki?!

Bəlli oldu ki, lazımdır. Xüsusən dünyaya onsuz da ağlayaraq gəldiyimizi bildiyimiz, mütləqa bir gün ələhəzrət tənhalıqla görüşəcəyimiz üçün.



məhkum edildiyi halda istər doğmaları, istərsə də qonum-qonşuları tərəfindən dəli hesab edilən kişi yaşamağın nə qədər avara bir iş olduğunu, tənha yaşlanmağın dözülməzliyini üzümüzə vurdu.

Xəstəxana paltarında, qutuqutu dərmanları ilə bizə, əslində, xəstələnmədiyinin, tək dərmanının sevgi və diqqət olduğunu yana-yana, ağlaya-ağlaya dedi. Bir də başqa bir həqiqətimizi şillə kimi çırpdı üzümüzə: gəncliyimizi başqaları üçün yaşadıEtiraz edən varsa, özünü aldatsın. Amma onsuz da hamımız bilirik ki, sonda qalib zaman və ölüm olacaq. Ondan sonrası haqqında isə düşünmək sadəcə ağılsızlıqdır. Odur ki, burada keçirəcəyimiz vaxtda özümüzlə baş-başa qalmalıyıq. Özü də bunu qədər, cəza kimi yox, sadəcə, qanunauyğunluq kimi qəbul edərək. Yoxsa işimiz özü üçün "Qocalıq bizə cavanlıqda elədiyimiz günahların cəzasını çəkmək üçün verilmiş vaxtdır" deyərək ömrü cəza kimi kəsən kişi tək yaşamaqdan bezərək, ölümü arzulayaraq ölərik...

Qeyd etdiyim kimi, ağır mətləbli, sadə dili və çox təsirli tamaşa idi. Bunu qüvvətləndirən ikicə amil isə təsirli rejissura və mükəmməl, səmimi, yaşanaraq yaşadılan oyun texnikası idi.

Göz yaşlarını silə-silə gülümsəməyə məcbur olan, arada şirnisi əlindən düşən uşaq kimi ayaqlarını yerə döyən, sonra tez deyingən qocaya, ondan da çox fağır kişiyə dönən Oktay Mehdiyev, sözün həqiqi mənasında, günün qəhrəmanı idi.

Bəli, o, aktyor kimi haqqında verilən təyini (Oktay qəhrəmanlarının özünə vara bilir) doğruldaraq, səhnə ilə salon arasındakı bütün maneələri darmadağın etdi və qarşısındakı tamaşaçını (bunu gizlətməyə çalışanlar olsa da) özünə qatıb səssiz-səmirsiz ağlatdı...

Alqışlar dayanmadı. Bu dəfə o, sevincdən ağladı. Alnında muncuq kimi parıldayan tərini də, yanağında iz salan göz yaşlarını da silib salonu tərk etməyən tamaşaçılara qoşuldu.

Bəli, vaxtilə ustad Vaqif İbrahimoğlunun Yuğ Teatrında ənənəyə çevirdiyi müzakirə burada da başladı. Qızğın müzakirədə səhnədən, aktyor oyunundan, rejissuradan, ümumən hələ də insanları ətrafına toplaya bilən sənətdən, ədəbiyyatdan, həyatdan xeyli söhbət açıldı.

Məncə, yaxşı adamlarla söhbət üçün də ələ fürsət olan "M. Teatr"ın tamaşalarını kitabların əhatəsində məkan quran ünvandan izləyin (biletləri iticket.az saytından əldə edə bilərsiniz), istəsəniz, sizi teatrın yerləşdiyi üçüncü mərtəbəyədək müşayiət edən 1 manatlıq kitab rəflərinə də baş vurun...

**Həmidə Nizamiqızı**

# Şuşa musiqi qanadlarında

## Azad yurdun nəğmələrdə tərənnümü: yeni diqqətəlayiq nümunələr varmı?



Onu vəsf edərkən elə inanılmaz duyğular keçirirsən ki, sözlər aciz qalır, ifadələr yerin sapdırır. Bilmirəm, nə hikmətdir, amma adama elə gəlir ki, ona sevgi və heyranlığın ifadəsində kəlmələr acizdir. Odur ki, sözü də, adi təsviri də mütləq musiqi ilə həmahəng olmalıdır. Səsin-avazın oldu, ya olmadı – fərqi yoxdur, onun qoynunda könlündən qopan sözləri mütləq hansısa ladda tələffüz etməlisən.

Bunu ömrümün ilk müqəddəs ziyarətində – Şuşa səfərində bir daha anladım. Səsin, musiqi duyumunun, üstəlik, o torpağa də zümzümənin belə nə qədər məsuliyyət tələb etdiyinin fərqinə varmadan oxudum. Gah ürəyimdə, gah da aşkar. Bu hikmətin sirrinə də ayağım o torpağa dəyəndə vaqif oldum. Əslində, oxuyan mən, sən, biz yox, o özüdür. Şuşa özü oxuyur, oxudur, zildən bəmə, zəngulədən rəngə özü düşür. Sən də, sadəcə, ona qoşulursan. Ya da bunu elə zənn edib xoşhal olursan...

Əksər musiqişünaslar Şuşadan söz edərkən xoşəvazlı xanəndələr, istedadlı instrumental ifaçılar yurdu olan bu şəhərin, əslində, özünün bir canlı musiqi əsəri olduğunu dilə gətiriblər. Həqiqətən də, belədir və tarixin bütün zamanlarında Şuşa həm musiqimizin beşiyi, həm də onun ən gözəl təbliğçisi olub.

28 illik işğal dövründə Şuşaya həsr olunan mahnılar, muğamları dinlədikcə, təbii ki, hamımızın üreyindən bir sızıltı keçib, nisgilli gözlərimizdə yaş gilələnib. Könüllər "Şuşanın dağları"nda pərvaz edib, dillər "Şuşa nəğməsi"nə köklənib, keçmiş xəyallar "Şuşam laylay"a qoşulub ahu-fəğan edib. Bu mövzu, bu ahəngə köklənən mahnılar sarı simimizə çevrilib. Amma buna baxmayaraq, o, hər birimizin qəlbindəki əbədi ünvanını dəyişməyib.

Bu gün isə ürəyimizi dağa döndərən Zəfərimizin, Şuşanın azadlığının fəxarətində daha gözəl duyğular içindəyik. Cənnət Şuşanın musiqimizdə yeri, onun hüsnü-camalının vəsf olunduğu musiqi əsərləri haqqında axtarış edərkən ilk qarşılaşdığım mənbə, təbii ki, hamımızın dillər əzbəri olan "Şuşanın dağları" mahnısıdır. Xalq mahnısı qədər xəlqiləşib, az qala Şuşanın himninə, musiqi izharına çevrilən bu mahnı ilə başladım təsvirə. Bir çoxları bu mahnını Qarabağın simvolik himni də adlandırır.

Qarabağ musiqi məktəbinin ən parlaq nümayəndələrindən olan Xalq artisti Xan Şuşinskinin müəllifi olduğu "Şuşanın dağları" Şuşalı-Şuşasız bütün zamanlarda tək təsəllimiz, tək könül sirdaşımız olub bəzən. Bu mahnı o qədər sevilib ki, əksər ifaçılar ona dönə-dönə müraciət ediblər. Nisbətən yaşlı nəsillər muğam ustadları Əbülfət Əliyevin və Yaqub Məmmədovun ifalarını xüsusi qeyd edirlər. Şuşanın çal-çağırlı günləri geridə qaldıqca, ürəklərdəki həsrəti dərinləşdikcə, "Şuşanın dağları"nın ifaçıları da artdı.

Zaman keçdi və biz yenidən Şuşamıza qovuşduq. Şuşa ilə görüşdən, Zəfərimizdən sonra mahnıya müraciət edənlərin sırası daha da genişləndi. Amma Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin Şuşa mövzusunda bir-birindən maraqlı və fərqli üslub və janrlı əsərlərinin sayı artsa da, onların heç biri hələlik "Şuşanın dağları" qədər populyarlıq qazanmayıb...

Qala-şəhərimiz haqqında musiqi əsərlərini iki hissəyə bölmək olar: Şuşanın işğalından əvvəl və sonra yaranan musiqi əsərləri. Bunun isə yeganə səbəbi bəstəkarlarımızın Şuşa mövzulu əsərlərindəki janr və üslub fərqidir.

Şəhərin gözəlliyini vəsf edən nəğmələrdən bəhs edən musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı bu nümunələrin hər birində qəribə bir ecazkarlığın, həzinliyin duyulduğunu deyir. Bu isə, sözsüz ki, şəhərin musiqi mədəniyyətimizdəki yerindən qaynaqlanır: "Şuşa bizim musiqi mədəniyyəti tariximizin ən möhtəşəm səhifələrini təşkil edir. Əbəs yerə Qarabağı, xüsusən də Şuşanı "Qafqazın konservatoriyası" adlandırmırlar. Neçə-neçə ustad sənətkarlar məhz bu şəhərin yetirməsidir. Çünki oranın havası, suyu sənətkarlara istedadları ilə bərabər, həm də bir yaradıcılıq məlhəmi, ilhamıdır. Bu mənada Şuşa xalqımız, mədəniyyətimiz üçün müqəddəs bir diyardır. Bu ilin möhtərəm Prezidentimiz tərəfindən "Şuşa İli" elan olunması sanki Şuşaya olan sevgimizi bir-beş artırdı. Əlamətdar il əlbizimizin sarı simini titrətdi və hər kəs çalışır ki, Şuşaya olan məhəbbətini bir cür ifadə etsin. Şuşa sevgilərini öz əsərləri, əməlləri, yaradıcılıqları ilə əbədiləşdirsin. Bu mənada mən də bir musiqişünas olaraq "Şuşa musiqidə" adlı kitab üzərində işləyirəm. Bir neçə bölmədən ibarət kitabda Şuşa haqqında yazılan musiqi əsərlərində də yer verməm".

Ötən əsrdə yaranan nümunələr sırasında görkəmli şuşalı bəstəkarlar – Xalq artistləri Əşrəf Abbasovun "Şuşa" simfonik poemasını, Süleyman Ələsgərovun Şıxəli Qurbanovun sözlərinə yazdığı "Gözəl Şuşa", bəstəkar, Əməkdar incəsənət xadimi Ağabacı Rzayevanın "Şuşanın yolları" mahnılarını qeyd edə bilərik. Təbii ki, ölməz Xan Şuşinskinin "Şuşanın dağları" mahnısının xüsusi yeri var...".

***

Mövzu ilə bağlı araşdırma aparırkən görkəmli bəstəkarlarımızın ayrıca Şuşa haqqında olmasa da, Qarabağ mövzulu mahnılarında Şuşanın əsas yer tutduğunu da görürük. Xalq artisti Cahangir Cahangirovun Rəfiq Zəkanın sözlərinə yazdığı "Qarabağ" mahnısında leytmotiv Şuşadır.

Siyahını Xalq artisti Səid Rüstəmovun "Şuşa haqqında nəğmə", Əməkdar incəsənət xadimi Oqtay Rəcəbovun "Şuşa" mahnıları ilə davam etdirmək olar. Təbii ki, bu mahnıların hər biri Qarabağın, Şuşanın çal-çağırlı günlərində yaranmışdı.

Zaman gəldi və bədxah qonşularımız Şuşamıza göz dikdilər, onu bizdən qoparmağa çalışdılar. Ötən bu ağır müddət – yəni Şuşanın işğal altında olduğu dövrdə bu həsrətin ağırlığı bəstəkarlarımızın da yaradıcılığına sirayət etdi və bir sıra kövrək sənət nümunələri ərsəyə gəldi. Bu mənada simfonik muğam və poemaları, oratoriyaları qeyd edə bilərik. Bu əsərlərdə Şuşa nisgili ilə yanaşı, o torpaqlara qayıtmaq inamı da öz əksini tapırdı.

Şuşalı bəstəkar, Xalq artisti Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası bu qəbildən nümunələr arasında xüsusi əhəmiyyətə malikdir. Müəllif oratoriyanın bir hissəsini doğma Şuşasına həsr edib. Ömrünü Şuşa həsrəti ilə başa vuran Vasif Adıgözəlovun "Natəvan" operasında da Qarabağ, Şuşa ana xətt olaraq keçir.

Şuşa həsrətli nümunələr arasında Süleyman Ələsgərovun Zəlimxan Yaqubun sözlərinə yazdığı "Bu gecə yuxuma girmişdi Şuşam" əsəri dərin hüzn və həsrət yükü ilə xüsusilə seçilir.



İslam Rzayev, Saleh Bədəlov, Niyazi, Mais Məmmədov, Səfa Qəhrəmanov. Şuşada III Azərbaycan musiqi festivalı, 1983

Eyni ovqata köklənən mahnılar sırasında uzun illər qəlbimizin Şuşa ağrısına layla çalan, onu ovutmağa çalışan "Şuşam laylay" mahnısı da var. Xalq artisti Azər Dadaşovun fleyta və fortepiano üçün "Şuşam" əsərini də bu sıraya daxil edə bilərik.

Xalq artisti Sevda İbrahimova "Sənin üçün darıxıram, Şuşa" adlı əsərini babası, görkəmli tarzən, Xalq artisti Qurban Pirimova həsr etsə də, nüvəsində tarixi şəhərə sevgi etirafı var.

Əməkdar incəsənət xadimi Cəlal Abbasovun da yaradıcılığında Şuşa mövzusu öz əksini tapıb. Bu da təsadüfi deyil. O, Şuşa mühitində doğulub, boya-başa çatan görkəmli bəstəkar Əşrəf Abbasovun övladıdır. Otuzillik Şuşa, Qarabağ həsrəti onun yaradıcılığına təsirsiz ötüşməyib. Məhz bu hisdən yaranan "Səni bir daha görə bilsəydim" adlı simfoniyasında qabarıq şəkildə ifadə olunub. Bəstəkar bu əsəri atasının xatirəsinə ithaf etməklə onun da narahat ruhunu musiqi dilində nəzmə çəkib. 1998-ci ildə yazılan bu əsərə sonra digər hissələr də əlavə olunaraq "Qarabağ trilogiyası" yaranıb. Trilogiyanın II hissəsi – "İn memoriam..." rekviyemi Şuşa şəhərinin müdafiəsində qəhrəmancasına şəhid olmuş tankçı Albert Aqarunova, Qarabağ müharibəsinin şəhidlərinə ithaf edilib. III hissə – "Şanlı Azərbaycan" odası Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbəmizə ithafdır.

Məşhur bəstəkarımız, Xalq artisti Firəngiz Əlizadənin də yaradıcılığında Qarabağ, Şuşa mövzusu özünə yer tapıb. Onun "İntizar" operasında Qarabağ, Şuşa həsrəti duyulur. Müəllifin violonçel və simfonik orkestr üçün "Mərsiyə" adlı konserti də var. Əsər Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsinə ithaf olunub.

Həmçinin Xalq artisti Ramiz Mustafayevin oratoriyalarında Qarabağ, Şuşa motivləri var.

Düzdür, sadaladığım əsərlərin bir qismi geniş ictimaiyyətə tanış olmasa da, hər halda peşəkar bəstəkarların yaradıcılıq tərcümeyi-hallarında öz əksini tapırlar.

Ümumiyyətlə, klassik, irihəcmli musiqi əsərlərinin kütləvi populyarlığı daim problem kimi qaldığından bir sıra bəstəkarlar mahnı janrına üstünlük veriblər və kifayət qədər nümunələr yaranıb.

Əməkdar incəsənət xadimi Cavanşir Quliyev də Şuşasızlığın gətirdiyi nisgili nota köçürüb. Bəstəkarın "Darıxıram, Şuşam mənim" adlı mahnısının sözləri Telman Qarayevə məxsusdur. Şuşaya həsrət, ona qayıtmaq eşqi mahnıda qəribə bir hüzn və inamla ifadə olunub.




Geniş dinləyici auditoriyasına yaxşı tanış olan mahnılardan Xalq artisti Tünzalə Ağayevanın Səməd Vurğunun sözlərinə yazdığı və özünün ifa etdiyi "Şuşa haqqında ballada"nı qeyd etmək olar. Bəstəkar-müğənni Rəsul Rzanın sözlərinə "Şuşa laylası" mahnısını da yazıb.

***

Nəhayət, 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığımız Qələbə ilə Şuşanın da sənamısı alan qara buludlar çəkildi və günəş bütün səxavəti ilə al şəfəqlərini qədim şəhərin üzərinə "sərdi". Şuşanın əsarətdən qurtuluşu ilə nisgil yerini sevinc və səadətə verdi. Bu ruh, bu sevgi bütün yaradıcı insanlar kimi, musiqi xadimlərinə də ilham mənbəyi oldu. Xüsusən 2022-ci ilin "Şuşa İli" elan olunmasından sonra bu mövzuda yeni musiqi əsərləri yazmaq həvəsləri artdı və yaqin ki, ilin sonunadək reallaşacaq silsilə hesabat konsertlərində bizlər də bu nümunələrin dinləyicisi olacağıq. Beləcə, Şuşada ən böyük əsəri – Zəfər dastanını yazan müzəffər Ordumuzun şücaətinin və Ali Baş Komandanın siyasi iradəsinin musiqidə təsvirini görəcəyik.

Ümumilikdə 44 günlük Vətən savaşımız, tarixi Qələbəmizdən sonrakı dövrdə Şuşa, Qarabağ mövzulu nümunələr yarandı. Doğrudur, onların böyük əksəriyyəti daha çox mahnı janrında, onun nisbətən populyar qolları olan estrada üslubunda olsa da, hər halda emosional duyğuların ifadəsi baxımından diqqəti cəlb edənləri də az deyildi. Bu sırada Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Fidan Hacıyevanın "Şuşam mənim", Əməkdar incəsənət xadimi Nadir Əzimovun bəstələdiyi və Xalq artisti Brilliant Dadaşovanın ifa etdiyi "Qarabağ – Şuşa" mahnıları da var.

Tarixi Qələbəmizdən sonra təqdim olunan mahnılardan biri də "Mənim üreyim Şuşa" adlı musiqi kompozisiyasıdır. Layihə Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşıb. Kompozisiyanın müəllifi xaricdə yaşayan həmyerlimiz Anar Bramodur. Sözləri Çexiyada yaşayan azərbaycanlı tanınmış şairə Leyla Bəyimə məxsus olan mahnı tanınmış müğənnilərimiz tərəfindən Azərbaycan, rus və ingilis dillərində hazırlanaraq məşhur musiqi platformalarında yayılıb.

Layihənin davamı olaraq "Şuşa Vətənə qayıdır" ("Шуша возвращается домой") mahnısı da ərsəyə gətirilərək musiqi ictimaiyyətinə təqdim edilib. Əməkdar artist Xumar Qədimovanın Rəşad Məcidin sözlərinə yazıb ifa etdiyi "Şuşa" mahnısı şanlı Zəfərimizdən sonra ərsəyə gələn nümunələrdəndir.

Ümumiyyətlə, mövzu ilə bağlı "Youtube" platformasında və digər musiqi kanallarında axtarış verərkən neçə-neçə musiqi nömrələri ilə rastlaşdım və demək olar ki, əksəriyyətini dinlədim. Amma təəssüf ki, onların bir qismi istənilən səviyyədə deyil. Doğrudur, hər birində Qarabağ, Şuşa, Vətən, Qələbə sevinci var...

Məşhur rus şairi Sergey Yesenin məktublarının birində şuşalıların gözəl səsə malik olmalarına işarə edərək "Əgər biri oxumağı bacarmırsa, deməli, şuşalı deyil" deyə yazırdı. Şuşa vüsalımız, ona olan sevgimiz, əslində, bu gün hamımızı şuşalı etsə də, düşünürəm ki, nazlı gözəl Şuşanı yalnız ona layiq vəsf edib, onun ruhuna toxunan avazda əzizləməliyik...

**Həmidə Nizamiqızı**

# Dədə Ələsgər onun ifasına valeh olmuşdu...

O, saz-söz sənətimizin görkəmli nümayəndəsi Aşıq Ələsgərin xeyir-duasını almışdı. El şənliklərində həm məlahətli səsi, həm də gözəl rəqsi ilə Qarabağda ad-san qazanmışdı. Ustadlar yadigarı Aşıq Abbasqulunu vəfatının 90 illiyi münasibətilə xatırlayırıq.

Aşıq Abbasqulu 1850-ci ildə Ağdamın Gülablı kəndində dünyaya göz açıb. Məşhur yaradıcı el sənətkarı Aşıq Valehin (1722-1822) nəvəsidir. Dövrün çətinlikləri üzündən o da bir çox klassik aşıq-şairlərimiz kimi məktəb-mədrəsə təhsili almayıb. Ancaq erkən çağlardan aşıq sənətinə dərin maraq göstərib.

Mənbələrdə qeyd olunur ki, həmin dövrdə Gülablıda iki məşhur aşıq dəstəsi olub. Atası oğlunun bu sənətə meylini nəzərə alıb onu Aşıq Nəcəfqulunun ifaçılar dəstəsinə qoşur. O, bu dəstədə bir müddət dəmkeşlik edir. Tezliklə saz çalmağı, oxuyub-yazmağı öyrənir. Sonra kənddə daha məşhur olan Aşıq Həsənin kollektivinə qoşulur. Həddən ziyadə məlahətli səsi ona şöhrət gətirir. Molla Pənah Vaqif, Aşıq Valeh, Qasım bəy Zakir və başqalarının müxəmməs, gəraylı və qoşmalarını böyük həvəslə oxuyur.

Aşıq Abbasqulunun həyatında ilk unudulmaz hadisə ustad Aşıq Ələsgərlə görüşü olur. Deyilənə görə, bir gün Aşıq Ələsgər öz dəstəsi ilə Gülablı kəndinə toy şənliyinə dəvət edilir. Aylı-ulduzlu bir yaz gecəsində qaynar məclis qurulur. Aşıq Ələsgər həmin toy axşamı Qarabağa həsr etdiyi "Qarqar" rədifli təcnisini oxuyur. O, üç gün-üç gecə çalıb-oxuduqdan sonra sazı yerə qoyur. Sonra yerli aşıqları dinləyir. Məclisin dördüncü günü kəndin mötəbər ağsaqqalları ondan xahiş edirlər ki, aşıqlıq sənətinə yenicə qədəm qoyan Abbasqulunu da dinləsin. Razılıq alıb onu məclisə dəvət edirlər. Dədə Ələsgər gənc aşığa deyir: "Oğlum, mən Aşıq Valehin vətənindəyəm. Ona görə də Valehin "Vücudnamə"sini oxusan, mənə daha xoş gələr".

Gənc aşığın məlahətli səsi, aydın, səlis tələffüzü və gözəl saz çalması ustadı xoşhal edir. Sonra sənətkar üzünü məclis əhlinə tutub "Gülablı camaatı, mərhum Valehin yurdu boş qalmayıb. Bu gün, doğrudan da, Abbasqulunun gözəl oxuması məni məftun etdi..." deyir.

Ustad aşığın Abbasquluya yüksək qiymət verməsi xəbəri bütün Qarabağa yayılır. O, bir müddət görkəmli şuşalı tarzən Sadıqcanın yanında çalışır. Sadıqcan Abbasqulunun musiqi qabiliyyətini nəzərə alıb və ona muğamlarımızın sirlərini öyrədir. Özü ilə dəvət olunduğu məclislərə aparır. Tiflis şəhərində verdiyi konsertlərdə Abbasqulu da iştirak edir. Bir müddət sonra Xurşidbanu Natəvan Abbasqulunu "Məclisi-üns"ə çağırır. Burada görkəmli sənətkarlarla oturub-durması onun kamil bir aşıq kimi formalaşmasında böyük rol oynayır. Sadıqcanın ansamblında iştirakı isə onu həm də bir muğam ifaçısı kimi tanıdır. Aşıq Abbasqulu ifa zamanı çox gözəl zəngulələr vurur və yerli-yerində muğam xalları işlədir. Çünki o, Cabbar Qaryağdıoğlu, Şəkili Ələsgər kimi gözəl səsli xanəndələrlə də birgə çalışmış və onların ifaçılıq sənətindən təsirlənmişdi. Görkəmli muğam ustası Seyid Şuşinski xatirələr kitabında bu haqda yazır: "Bu adamın çalıb-oxumağına qulaq asanda bundakı bacarıq, məharət adamı valeh edirdi. Xüsusilə onun incə və sərrast bir ritmdə oynamağına söz ola bilməzdi. Mən təəssüf ki, mən Aşıq Ələsgəri görməmişəm. Amma çox aşıqları eşitmişəm. Onların içərisində Abbasqulunun çalıb-oxumağı heç yadımdan çıxmaz...".

1902-ci ilin yanvarında Bakıda ilk dəfə "Şərq konserti" təşkil olunur. Bura məşhur xanəndələrlə bərabər Gülablı aşıqları da dəvət olunur. Konsertin ikinci hissəsində çıxış edən Gülablı aşıqları böyük müvəffəqiyyət qazanırlar. "Kaspi" qəzeti 13 yanvar 1902-ci il tarixli nömrəsində yazır: "Konsertin ikinci hissəsində Şuşa qəzasının Gülablı kəndindən dəvət olunan aşıqlar çıxış etdilər. Aşıqlar dəstəsinə Qarabağda məşhur olan Aşıq Nəcəfqulu rəhbərlik edirdi. Aşıq Abbasqulunun təmiz və cingiltili səslə "Bayatı" oxuması, Nəcəfqulunun balabanda "Bayatı-Şiraz" muğamını zövqlə çalması dinləyiciləri heyran qoydu".

Aşıq Abbasqulu 1914-cü ildə Almaniyanın "Sport-Rekord" şirkəti tərəfindən bir çox xanəndə və musiqiçilərlə birlikdə Tiflis şəhərinə dəvət olunur. O, burada öz dəstəsi ilə "İkisi bir boyda", "Neylərsən", "Dünya əhvalatı", "Vücudnamə", "Üçtelli durna", "Şikəstə", "Tello" və s. adlı aşıq havalarını qrammofon valına yazdırır.

Musiqişünas Firudin Şuşinski görkəmli sənətkarla bağlı araşdırmasında yazır ki, Aşıq Abbasqulu 1931-ci ilin yazında bir daha Bakıya dəvət olunur. Şəhərin musiqi həvəskarları sənətkarı unutmadıqları üçün konsertə sonsuz maraq göstərirlər. Konsert günü Dram Teatrının kassasında bilet qalmır. Bilet tapmayan yüzlərlə tamaşaçının tələb və narazılığını nəzərə alan Konsert Birliyinin müdiriyyəti aşıqların ikinci konsertinin Dövlət Filarmoniyasının binasında olacağını elan edir. Aşıq Abbasqulunun konserti təkcə onun pərəstişkarlarının deyil, Bakının məşhur musiqi xadimlərinin də diqqətini çəkir. Onun incə səsinə, mahir çalğısına qulaq asmaq, son dərəcə çevik və ritmik rəqsinə tamaşa etmək üçün konsertə görkəmli bəstəkarlar Üzeyir Hacıbəyli, Müslüm Maqomayev və başqa musiqi xadimləri də gəlirlər...

Aşıq Abbasqulu oxuduğu el havalarında insanları nəcib, mərd, cəsarətli, dostluqda möhkəm, həm də vətənpərvər olmağa səsləyib. Bir el aşığı, xalq müğənnisi kimi dinləyicilərin sevimlisinə çevrilib. Tanınmış aşıq-xanəndə 1932-ci ildə vəfat edib. Gülablı kəndində dəfn olunub.

**Savalan Fərəcov**

## Çağırtəpə abidəsində Neolit dövrünün izləri

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun ekspedisiyası üç ildir Ağstafa rayonunun Xətai kəndi ərazisində Neolit dövrünə aid yaşayış yerində arxeoloji tədqiqatlar aparır.

Ekspedisiya qrupu tərəfindən ərazidən zəngin maddi mədəniyyət nümunələri əldə edilib. Son nailiyyətlərdən biri də dairəvi şəkildə olan kompakt düşərgədə tikililərin aşkar edilməsidir.

Ekspedisiyanın rəhbəri, professor Nəcəf Müseyibli bildirib ki, abidə sovet dövründən məlum olsa da, onun tədqiqinə son illərdə başlanılıb. Burada aşkar olunmuş bütün tapıntılar abidənin Neolit dövrünə məxsusluğunu, yəni təxminən 8 min il yaşı olduğunu söyləməyə əsas verir. Bu abidənin qədim sakinləri əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olublar. Aşkar olunmuş tapıntılar müxtəlif daşlardan, obsidiandan və sümükdən hazırlanmış məişət əşyalarından ibarətdir.

Alim qeyd edib ki, hazırda 200 kvadratmetrlik ərazidə arxeoloji qazıntılar davam edir. Artıq üst qatda aşkara çıxmış maddi mədəniyyət nümunələri götürülüb. Aparılan qazıntılar bölgənin Neolit dövrünün araşdırılması üçün olduqca əhəmiyyətlidir. Eyni zamanda qazıntılar ərazinin Azərbaycan Cənubi Qafqaz və Yaxın Şərq mədəniyyəti sistemlərində yerini müəyyənləşdirməyə imkan verir.

# "Mənim sevimli dəlim" Lənkəran səhnəsində

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Teatr sənəti fakültəsinin II kurs TKA "B" qrupu tələbələrinin iştirakı ilə iyunun 12-də Lənkəran Dövlət Dram Teatrında Xalq yazıçısı Elçinin "Mənim sevimli dəlim" tamaşası nümayiş etdirilib.

Sovet İttifaqının dağıldığı dövrdə insanların çaşqınlığından, Azərbaycan cəmiyyətində yaşanan proseslərdən bəhs edən tamaşaya fakültənin kurs rəhbəri, Əməkdar artist, dosent Yaqut Paşazadə quruluş verib.



Tamaşadan öncə teatrın direktoru Tofiq Heydərov çıxış edərək tələbə aktyorları salamlayıb və aprel ayında ADMİU-nun rektoru Ceyran Mahmudova, eləcə də universitetin müəllim-tələbə heyəti ilə keçirdiyi görüş barədə danışıb. Bildirib ki, universitet tələbələrinin Lənkəran səhnəsində oynadıqları tamaşa həmin görüşün bir nəticəsidir.

Kurs rəhbəri Yaqut Paşazadə xoş və səmimi münasibətə görə Lənkəran teatrının rəhbərliyinə və kollektivinə, lənkəranlı tamaşaçılara minnətdarlığını ifadə edib.

Sonra "Mənim sevimli dəlim" tamaşası təqdim olunub. Səhnə əsərində Elşad Şirinov, Könül Nəzərova, Yusif İsmayılov, Zeynəb Əliyeva, Nicat İsgəndərov, Briliyant Zeynalova, Əsmər İsmayılzadə, Nərmin Quliyeva, Anar Həsənzadə, Abbas Qənbərov, Səbinə Hüseynova, Ləman Səlimova, Fidan Ağazadə, Əli Əsədov və Aydan Məhərrəmova çıxış ediblər.

Tələbə-aktyorlar səfər zamanı Lənkəran teatrındakı şəraitlə də yaxından tanış olublar.

# Fikrət Əmirovun 100 illik yubileyi Şəkidə və Qəbələdə qeyd olunub



Dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illiyi Prezident İlham Əliyevin 2022-ci il 15 mart tarixli sərəncamına uyğun olaraq ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlərlə qeyd edilir.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin qrantı əsasında Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş layihəni həyata keçirən "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyi də yubileyə öz töhfəsini verir.

İyunun 9-da "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə bəstəkarın 100 illik yubileyi Şəki Dövlət Regional Kollecində qeyd olunub.

Tədbirdə kollecin direktoru Sərdar Şərifov və ictimai birliyin sədri, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı çıxış edərək Fikrət Əmirovun sənət irsindən söz açıblar. Sonra S.Təhmirazqızının ssenarisi əsasında "Azərbaycantelefilm" Yaradıcılıq Birliyində çəkilən "Fikrət Əmirov" filmi nümayiş olunub.

Tədbir Şəki Dövlət Regional Kolleci tələbələrinin ifasında konsert proqramı ilə davam edib. Konsertdə Fikrət Əmirovun "1001 gecə" baletindən "Oxatanların rəqsi", "Sevil" operasından Sevilin və Dilbərin ariyaları, "Göygöl", "Laylay" mahnıları, "Gözün aydın" musiqili komediyasından Leylinin mahnısı və qızların xoru səslənib.

"İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə Fikrət Əmirovun 100 illiyinə həsr olunan növbəti tədbir iyunun 10-da Qəbələ Mədəniyyət Mərkəzində keçirilib.

Tədbiri İsmayıllı Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi, Qəbələ rayonu üzrə nümayəndə Nargilə Qafarova açaraq iştirakçıları salamlayıb.

Səadət Təhmirazqızı çıxış edərək Fikrət Əmirovun 100 illiyinin ölkəmizdə geniş şəkildə qeyd olunmasından söhbət açıb.

Qəbələ İncəsənət məktəbinin müəllim və şagirdlərinin ifasında Fikrət Əmirovun əsərlərindən nümunələr təqdim olunub. Sonra Fikrət Əmirova həsr edilmiş film nümayiş olunub, bəstəkarın yaradıcılığı barədə fikir mübadiləsi aparılıb.

Layihə çərçivəsində Şəki və Qəbələdə keçirilən tədbirlərin yerli ictimaiyyət tərəfindən maraqla qarşılanması böyük bəstəkarın musiqi irsinin əbədiyaşarlığının ifadəsidir.

**Fidan Nəsirova**
**BMA-nın elmitədqiqat laboratoriyasının elmi işçisi**

# Türkiyəli alimlər Aşıqlar Birliyində

Türkiyənin Ege Universiteti (İzmir) Türk Dünyası Araşdırmaları İnstitutunun əməkdaşı, dosent Pınar Fedakar və universitetin Dövlət Türk Musiqisi Konservatoriyasının əməkdaşı Ali Hikmet Gökçen bu günlərdə Azərbaycan Aşıqlar Birliyində (AAB) qonaq olublar.

AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı qonaqları salamlayaraq qurumun fəaliyyəti barədə ətraflı məlumat verib.

Görüşdə Türkiyədə və Azərbaycanda, eləcə də Borçalıda və Cənubi Azərbaycanda aşıq sənətinin mövcud durumu ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Qonaqlar xüsusilə Borçalı aşıq mühiti, Borçalı aşıqlarının həyat və yaradıcılığı, Borçalı aşıq havalarının özəllikləri ilə maraqlanıblar.

AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və filologiya elmləri doktoru, professor Mahmud Allahmanlının da iştirak etdiyi görüşün sonunda qonaqlara Azərbaycan aşıq sənəti, o cümlədən Borçalı aşıq mühitinə dair kitablar hədiyyə olunub.

# "Kaktus çiçəyi"nin təqdimatı

İyunun 10-da Səməd Vurğunun Ev-Muzeyində istedadlı yazar Aysel Fikrətin "Kaktus çiçəyi" adlı hekayə, esse və şeirlər kitabının təqdimat mərasimi keçirilib.



Tədbirdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU), Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının müəllim və tələbələri iştirak ediblər.

Əvvəlcə ADMİU-nun müəllimi Kəmalə Mehdiyevanın rəhbəri olduğu Səhnə danışığı kafedrasının tələbələri "Kaktus çiçəyi" kitabının motivləri əsasında hazırlanan kompozisiya ilə çıxış ediblər. Sonra Aysel Fikrətin özünün ifasında "Sel kimi" şeirindən videoçarx nümayiş etdirilib.

Muzeyin direktoru Nüşabə Babayeva-Vəkilova çıxış edərək Aysel Fikrətin mənsub olduğu ailənin layiqli davamçısı olduğunu (tanınmış şair Fikrət Sadığın qızı – red.) vurğulayıb, müəllifə yeni yaradıcılıq uğurları arzulayıb.

Digər çıxış edənlər kitab və müəllifin yaradıcılığı haqqında fikirlərini bölüşüblər.

Sonda Aysel Fikrət təqdimatın keçirilməsinə şərait yaradan muzeyin əməkdaşlarına minnətdarlığını bildirib və tədbir iştirakçılarına "Kaktus çiçəyi" kitabını təqdim edib.

# Mədəni-mənəvi zənginliklərimizi yaşadaq

Xalq oyun nümunələri yarandığı dövrdən bu günə kimi mənsub olduğu xalqların yaşayış tərzini, etnik-mədəni, mənəvi dəyərlərini, adət-ənənə və inanclar sistemini özündə əks etdirir. Dərin köklərə malik xalq oyunları zaman keçdikcə müəyyən dəyişikliyə uğramasına baxmayaraq, onların əksəriyyətində əsas əlamətlər qorunub saxlanılıb.

Bəzi oyun nümunələrində əzmkarlıq, güc, dözüm və cəldlik, bəzilərində isə mənəvi-psixoloji keyfiyyətlər, lirik, poetik məqamlar özünü qabarıq şəkildə göstərir. Onların bir çoxu sadə hərəkətli olmaqla söz və səs komponentlərindən ibarətdir.

Yağış yağdırmaq, külək əsdirmək, ocağı alovlandırmaq, məhsul toplamaq, ov etmək qaydaları, od başında rəqs etmək və bu kimi başqa oyun hərəkətləri Qobustan qayaüstü təsvirlərində əks olunub. Mərasim oyunları dedikdə müəyyən bir kollektivin kütləvi şəkildə həyata keçirdiyi müxtəlif hərəkətlər nəzərdə tutulur. Bu oyun nümunələri arasında uşaq oyunları da özünəməxsusluğu ilə fərqlənir. Uşaqların sevdiyi gizlənqaç, topaldıqaç, çilingağac, hiltop, qaçdı-qovdu, qıyqılıc-qıymaqılıc, dəsmal atdı, şən və hazırcavablar klubu, eyni zamanda təşkil olunmuş hər hansı bir mədəni-kütləvi tədbirdə xorla oxunan müxtəlif növ mərasim nəğmələrinin müşayiəti ilə ifa edilən folklor rəqsləri mədəni-mənəvi zənginliyimizdən xəbər verir.

Mədəniyyət müəssisələrində fəaliyyət göstərən rəqs dərnəklərində unudulmuş qədim xalq oyunlarının öyrənilərək təbliğ edilməsi olduqca vacibdir. Folklor evlərində bu istiqamət üzrə fəaliyyət təcrübəli mədəniyyət işçilərinin rəhbərliyi altında həyata keçirilsə, daha effektiv olar. İştirakçıların yaş xüsusiyyətləri nəzərə alınmaqla xalq oyunları haqqında məlumat saatları, məruzələr təşkil etmək mümkündür. Keçiriləcək tədbirlərdə oyunların hansı mərasim və adət-ənənələrlə bağlı olduğu öyrənilməlidir. Yerlərdə keçirilən kütləvi şənliklərdə, asudə vaxtlarda milli və dünyəvi xalq oyunlarından istifadə ilə bağlı da söhbətlər aparılmalıdır.

Folklor evlərinin təşkil etdiyi tədbirlərdə həmin ərazilərdə yaşayan etnik qrupların iştirakı da nəzərə alınmalıdır. Bundan əlavə, klub müəssisələri arasında xalq oyunlarının təbliği məqsədilə müsabiqə və festivallar keçirmək də bu mənada effektiv olar.

Bu gün müasir texnoloji yeniliklər mədəniyyətlərin mübadiləsini daha da sürətləndirib. Bu prosesdə xalqların malik olduğu mədəni zənginlikləri qoruyub yaşatmaları və təbliğ etmələri çox vacibdir. Biz etnik-mədəni sistemimizə yad olan mütərəqqi əhəmiyyət kəsb etməyən axınlara tarixi-mədəni mirasımız və xalq yaradıcılığı nümunələrinin yaşadılması ilə müəyyən qədər cavab verə bilərik. Ona görə də mədəni zənginliklərimiz gənclərə daha effektiv şəkildə təbliğ olunmalı, məqamı gələndə onların özləri də mədəniyyətimizin təbliğatçılarına çevrilməlidirlər. Bir sözlə, etnik-mədəni varlığımız mədəni-mənəvi dəyərlərimizin qorunması, öyrənilib təbliğ olunmasından asılıdır.

Dahilər deyib ki, ən dəhşətli müstəmləkə yad mədəniyyətlərlə gələn zəhərli təsirlərdir. Bu gün dövlətimizin həyata keçirdiyi bir sıra yerli və beynəlxalq əhəmiyyətli layihələr, mədəni proqramlar bu sahədə niyyət və məramımızın göstəricisidir.

Gəlin, dövlətimizin bu istiqamətdə reallaşdırdığı layihələrə biz də dəstək olaq. Xalqımıza məxsus mədəni sərvətləri yaşadaq və gələcək nəsillərə ərməğan edək.

**Mahir Əbilov**
**Sabirabad rayonu Güdəcühür kənd Folklor evinin direktoru**

## Xatirə təqvimi — 16-20 iyun

### Azərbaycan

**16 iyun 1888** – Xalq artisti, teatr xadimi Hacıağa Mütəllib oğlu Abbasov (1888 – 7.5.1975) Bakının Maştağa kəndində doğulub. 1921-ci ildən özünün yaratdığı Tənqid-Təbliğ Teatrına, daha sonra Akademik Dram Teatrına (1927-1929), Bakı Teatr Texnikumuna (1929-1937) rəhbərlik edib. "Ağa Məhəmməd şah Qacar və Molla Pənah Vaqif", "Sabirin məhkəməsi" və s. pyeslərin müəllifidir.

**16 iyun 1939** – Şair, ədəbiyyatşünas, Əməkdar incəsənət xadimi, professor Rəfiq Zəka Xəndan (1939 – 7.1.1999) anadan olub. "Çağlayan", "Könlümün yadigarı", "Axıb gedən günlərimiz", "Azərbaycanın səsi" və s. kitabların müəllifidir.

**17 iyun 1926** – Xalq rəssamı Elbəy Həsən oğlu Rzaquliyev (1926 – 15.9.2007) anadan olub. Əsərləri bir sıra xarici ölkələrdə sərgilənib. "Qara daşlar", "Telefonçu qız", "Arşın mal alan" (1965), "Bakıda küləklər əsir", "Gün keçdi", "Arxadan vurulan zərbə" və s. filmlərin rəssamı olub.

**17 iyun 2020** – Xalq rəssamı Mayis Əlişir oğlu Ağabəyov (1.5.1941 – 2020) vəfat edib. 20-dən çox filmin ("Babək", "Nizami", "Qətl günü", "Özgə vaxt" və s.) quruluşçu rəssamı olub.

**18 iyun 1917** – Görkəmli bəstəkar, pedaqoq, Xalq artisti Əhməd Cövdət İsmayıl oğlu Hacıyev (1917 – 18.1.1994) anadan olub. Azərbaycanda simfonik musiqinin yaradıcılarından biridir, səkkiz simfoniya, orkestr və xor üçün əsərlər bəstələyib. Qara Qarayevlə birlikdə yazdığı "Vətən" operasına görə SSRİ Dövlət mükafatına layiq görülüb.

**18 iyun 1936** – Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarı ilə Bakı Fəhlə Uşaq Teatrı Gənc Tamaşaçılar Teatrı adlandırılıb. Teatrın rus bölməsi 1928-ci ilin 5 oktyabrında yaradılmış, Azərbaycan bölməsi 1930-cu ilin 30 yanvarında fəaliyyətə başlamışdı.

**18 iyun 1998** – Azərbaycanda "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" qəbul olunub. Prezident İlham Əliyevin sərəncamı (2007) ilə bu tarix "İnsan hüquqları günü" kimi təsis olunub.

**18 iyun 2002** – Naxçıvanda Bəhruz Kəngərli Muzeyinin açılış mərasimi keçirilib. Prezident Heydər Əliyev mərasimdə iştirak edib.

**18 iyun 2010** – Əməkdar incəsənət xadimi, qoboy ifaçısı, pedaqoq Azər Canbaxış oğlu Abdullayev (25.2.1929 – 2010) vəfat edib. Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti, Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) Nəfəs və zərb alətləri kafedrasının müdiri olub.

**19 iyun 1900** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Möhsün Sadıq oğlu Sənani (Cəfərov; 1900 – 11.2.1981) Tiflisdə doğulub. Tiflisdəki Azərbaycan teatrında çıxış edib. 1921-ci ildə Bakıya gələrək Azərbaycan Dövlət Akademik Dram Teatrında çalışıb. "Kəndlilər", "Fətəli xan", "O olmasın, bu olsun", "Sehrli xalat", "Dağlarda döyüş" və s. filmlərdə çəkilib.

**19 iyun 1924** – Tanınmış ədəbiyyatşünas, professor, Əməkdar elm xadimi Seyfulla Qüdrət oğlu Əsədullayev (1924-2011) Astara rayonunun Ərçivan kəndində anadan olub.

**19 iyun 1933** – Əməkdar memar Avrora Əbdüləziz qızı Salamova (1933-1986) anadan olub.

**19 iyun 1934** – Azərbaycan SSR Xalq Komissarları Soveti 15 cildlik "Azərbaycan Ensiklopediyasının nəşri haqqında" qərar qəbul edib. Lakin bu qərar həyata keçmədi. 70-80-ci illərdə 10 cildlik Azərbaycan Ensiklopediyası nəşr edildi.

**19 iyun 1978** – Əməkdar artist İbrahim Məcnun oğlu Qaradağlı (1907-1978) vəfat edib. Ağdaş teatrında aktyor və rejissor kimi fəaliyyət göstərib.

**20 iyun 1898** – Xalq artisti Əli Mirzə oğlu Qurbanov (1898 – 14.10.1962) Tiflisdə anadan olub. Səhnə fəaliyyətinə burada başlayıb, 1925-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb. "Bəxtiyar", "Qızmar günəş altında", "Bir qalanın sirri" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**20 iyun 1912** – Dramaturq, tərcüməçi Cabbar Hüseyn oğlu Məcnunbəyov (1912-1967) İrəvanda doğulub. "İliç buxtası", "İldırım" və s. pyesləri tamaşaya qoyulub.

**20 iyun 1914** – Əməkdar mədəniyyət işçisi, aşıq Əmrah Paşa oğlu Gülməmmədov (1914-1987) Marneuli rayonunun Araplı kəndində doğulub.

**20 iyun 1915** – Xalq artisti Süleyman Ağababa oğlu Ələsgərov (1915 – 10.12.1998) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrında çalışıb. "Bizim Cəbiş müəllim", "Bəxtiyar", "Babamızın babasının babası" və s. filmlərdə çəkilib.

**20 iyun 1921** – Bəstəkar, Xalq artisti Cahangir Şirgəşt oğlu Cahangirov (1921 - 25.3.1992) Bakının Balaxanı kəndində doğulub. "Arazın o tayında" vokal-simfonik poeması, "Füzuli", "Nəsimi" kantataları, "Azad", "Xanəndənin taleyi" operaları və çoxsaylı mahnıların müəllifidir. "Koroğlu", "Yenilməz batalyon", "Dəli Kür" filmlərinə musiqi yazıb.

**20 iyun 1921** – Əməkdar artist, tanınmış tarzən, pedaqoq Firidun Yusif oğlu Ələkbərov (1921 – 9.11.2021) Gəncədə anadan olub.

**20 iyun 1924** – Biblioqraf, ədəbiyyatşünas, Azərbaycan mətbuat tarixinin tədqiqatçısı, professor Nazim Fərrux oğlu Axundov (1924-1994) Şuşa şəhərində anadan olub.

### Dünya

**16 iyun 1313** – İntibah dövrünün görkəmli italyan yazıçısı, şair Covanni Bokkaçço (Giovanni Boccaccio; 1313-1375) anadan olub. Povest və hekayələr toplusu olan "Dekameron" əsərinin müəllifidir.

**16 iyun 1754** – Başqırd şairi Salavat Yulayev (1754-1800) anadan olub. Ədəbi yaradıcılığı ilə yanaşı, rus üsyançısı Yemelyan Puqaçovun silahdaşı kimi tarixə düşüb.

**16 iyun 1937** – Amerika yazıçısı, ssenarist və dramaturq Erik Siqal (Erich Wolf Segal; 1937-2010) anadan olub.

**17 iyun 1818** – Fransız bəstəkarı, dirijor və pedaqoq Şarl Quno (Charles François Gounod; 1818-1893) anadan olub. "Faust", "Romeo və Cülyetta" operalarının müəllifidir.

**17 iyun 1882** – Rus bəstəkarı, dirijor, pianoçu İqor Stravinski (1882-1971) anadan olub. "Müqəddəs bahar", "Səməndər quşu" baletlərinin, "Bülbül" operasının müəllifidir.

**18 iyun 1936** – Rus-sovet yazıçısı Maksim Qorki (Aleksey Maksimoviç Peşkov; 28.3.1868 – 1936) vəfat edib. Əsərləri: "Ana", "Foma Qordeyev", "Artamonovların işi", "Klim Samqinin həyatı" (romanlar); "Meşşanlar", "Həyatın dibində", "Yeqor Bulıçev və başqaları", "Vassa Jeleznova" (pyeslər) və s.

**19 iyun 1623** – Fransız filosofu, riyaziyyatçı Blez Paskal (Blaise Pascal; 1623-1662) anadan olub. "Din və digər şeylər haqqında düşüncələr", "Əyalət adamına məktublar" və s. əsərlərin müəllifidir.

**19 iyun 1920** – Fransız kinorejissoru İv Robber (Yves Robert; 1920-2002) anadan olub. Filmləri: "Qara çəkməli ucaboy sarışın", "Ucaboy sarışının qayıtması" və s.

**19 iyun 1924** – Belarus yazıçısı Vasil Bıkov (1924-2003) anadan olub. Əsərləri: "Alp balladası", "Ölülər ağrı hiss etmir", "Sotnikov", "Sübhədək yaşamalı" və s. Əsərləri əsasında filmlər çəkilib.

**20 iyun 1819** – Fransız bəstəkarı Jak Offenbax (Jacques Offenbach; 1819-1880) anadan olub. "Gözəl Yelena", "Paris həyatı", "Quldurlar" və s. operettaların müəllifidir.

**20 iyun 1932** – Rus şairi Robert Rojdestvenski (1932-1994) anadan olub. Əsərləri: "Rekviyem", "Otuzuncu əsrə məktub", "210 addım" poemaları və s.

**Hazırladı: Vüqar Orxan**

# Parisdəki biennaledə azərbaycanlı heykəltəraşın “Gündüz və gecə”si

9-12 iyun tarixində Parisdə “Revelations” (“revelation” – vəhy, ilham) Beynəlxalq Sənətkarlıq və Yaradıcılıq Biennalesi (İnternational Biennial of Crafts and Creation) keçirilib.

Eyfel qülləsinin qarşısında məşhur “Grand Palais Ephemere”də 33 ölkədən 500-dən çox iştirakçını bir araya gətirən sayca 5-ci biennaledə ilk dəfə Azərbaycan da təmsil olunub. Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunmuş Azərbaycan stendində Elvin Nəbizadənin fenomenal “Gündüz və gecə” əsəri nümayiş etdirilib.




“Revelations” biennalesinin və Fransa İncəsənət Atelyesi Federasiyasının prezidenti Od Taon (Aude Tahon) layihədə Azərbaycanın iştirakından şad olduqlarını bildirib. O qeyd edib ki, “Revelations” Beynəlxalq Biennalesinin əsas məqsədi bədii yaradıcılıq sahəsində istedadların aşkarlanması və tanıdılmasıdır. O, Fransa İncəsənət Atelyesi Federasiyası tərəfindən təşkil olunan dekorativ sənətə dair digər salonlar haqqında məlumat verərək, Azərbaycanı bu salonlarda da görmək arzusunu ifadə edib. “İncəsənət peşələri bu narahat dünyada yaxşı bələdçidir. Tam optimist, davamlı həyat və yaradıcılıq məkanları kimi bu peşələr ümid, təxəyyül və şənlik daşıyıcılarıdır” deyən O.Taon belə yaradıcılıq və sənətkarlıq salonlarının beynəlxalq incəsənət dialoqu məkanı olduğunu vurğulayıb.

Bildirib ki, Azərbaycan stendində nümayiş etdirilən “Gündüz və gecə” əsərinin hələ şəklini görəndə heyran olub: “Bu əsər salonumuzu şərəfləndirir. Əminəm ki, ziyarətçilər bu əsər vasitəsilə Azərbaycanı daha dərindən kəşf edəcəklər”.

Heykəltəraş Elvin Nəbizadə biennaledə iştirak etməkdən şərəf duyduğunu bildirib. “Müasir dünyada mövcud təlatümlər və mürəkkəb hadisələr, eləcə də pandemiya yaradıcı insanlarda sənət ruhunu müəyyən dərəcədə zəiflədib. Təşəbbüsü və dəstəyi ilə yaradıcı ruhumu canlandırdığı, belə möhtəşəm biennaledə iştirak etməyimə imkan yaratdığı üçün Heydər Əliyev Fonduna, onun rəhbərliyinə dərin təşəkkürümü bildirirəm”, - deyə E.Nabizadə qeyd edib.

Əsəri haqqında məlumat verən müəllif “Gündüz və gecə” instalyasiyasının ikili xarakter daşıdığını vurğulayıb. Bildirib ki, ziyarətçilər instalyasiyanın ətrafında dolaşaraq, əsərin bir hissəsinə çevrilərək onu daha dərindən hiss edəcəklər.

“Gündüz və gecə” instalyasiyası müasir dövrdə vacib problemlərdən olan təbiətin və ətraf mühitin çirklənməsi, plastik tullantılarla mübarizə məsələsinə diqqəti cəlb edir.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihəsi üzrə Vyanada daha bir təqdimat

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun “Türk dünyasını birləşdirən ədəbi körpü” adlı layihəsi çərçivəsində Vyanada türk yazıçısı Ömər Seyfəddinin (1884-1920) “Hekayələr” kitabı alman dilində təqdim edilib. Fondun, Azərbaycanın və Türkiyənin Avstriyadakı səfirliklərinin birgə təşkil etdiyi təqdimat Vyana Yunus Əmrə İnstitutunda keçirilib.




Mərasimdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, Türkiyənin Avstriyadakı səfiri Ozan Ceyhun, Vyana Yunus Əmrə İnstitutunun rəhbəri Ayşe Yorulmaz, araşdırmaçı-yazar Orxan Aras, Türkiyənin Erciyes Universitetinin professoru Hülya Argünşah və başqaları iştirak ediblər.

Səfir Ozan Ceyhun bildirib ki, türk ədəbiyyatının inkişafına əhəmiyyətli töhfələr verən Ömər Seyfəddin qısa hekayələr janrının önəmli imzalarından biridir və Türkiyənin imperatorluqdan cümhuriyyətə keçid dönəmində milli dildə ədəbiyyatın formalaşmasında onun xüsusi rolu olub.

Günay Əfəndiyeva öz çıxışında avstriyalı oxucuları Türk dünyasını birləşdirən ədəbi incilərlə görüşdürdüklərini diqqətə çatdırıb. Fondun prezidenti Ömər Seyfəddinin əsərləri və ümumiyyətlə, ədəbi fəaliyyəti ilə türk dilinin özləşməsinə çalışdığını, türkçülük axınının qurucu və öncüllərindən biri olduğunu qeyd edib. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətindən də danışan Günay Əfəndiyeva təşkilatın məqsədinin türk xalqlarının tarixini, adət-ənənələrini, musiqisini, ədəbiyyatını, incəsənətini – ümumiyyətlə, mədəni irsini qorumaq, təbliğ etmək, gələcək nəsillərə ötürmək olduğunu vurğulayıb.

Uzun illər Almaniyada yaşayan araşdırmaçı yazar Orxan Aras, tərcüməçi German Kohl, Ömər Seyfəddinlə bağlı elmi məqalələri ilə tanınan professor Hülya Argünşah görkəmli yazıçının cəmi 36 il yaşamasına baxmayaraq, türk ədəbiyyatına böyük töhfələr verdiyini qeyd edib, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun türk ədəbiyyatının Avropada tanıdılması yönündə çalışmalarını yüksək qiymətləndiriblər.

Fondun təşəbbüsü ilə TRT tərəfindən çəkilmiş Ömər Seyfəddinin həyat və yaradıcılığına dair sənədli film göstərilib.

Sonda Azərbaycanın Xalq artisti Mehriban Zəki qopuzda ifa edərək şeirlər söyləyib.

Xatırladaq ki, bundan öncə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun “Türk dünyasını birləşdirən ədəbi körpü” adlı layihəsi üzrə Vyanada almanca nəşr olunmuş “Azərbaycan qadın şairlərinin poeziya antologiyası”nın təqdimatı olmuşdu.

# “Sonuncu” filmi Rusiyada mükafata layiq görülüb

Rejissor Fariz Əhmədovun “Sonuncu” sənədli filmi Rusiya Federasiyasının Çeboksarı şəhərində (Çuvaşiya Respublikası) keçirilən 15-ci Beynəlxalq Kino Festivalında qısametrajlı filmlər üzrə müsabiqədə baş mükafata layiq görülüb.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və “Salnaməfilm” studiyası tərəfindən istehsal olunmuş filmin baş prodüseri Arzu Əliyeva, prodüserləri Orman Əliyev və Nazim Hüseynov, rejissoru Fariz Əhmədov, ssenari müəllifləri Esmira Əyyub və Fariz Əhmədovdur. Filmin quruluşçu operatoru polşalı kinematoqrafçı Mateuş Çuxnovskidir.



Film Xəzərdəki Kürdili adasının sonuncu sakini Vitali Pronindən bəhs edir.

“Sonuncu” sənədli filmi ötən il premyerasını 50-ci Rotterdam Beynəlxalq Film Festivalında etdikdən sonra müxtəlif ölkələrdə festivallarda nümayiş olunub. Ekran əsəri Bosniya və Herseqovinada keçirilən 15-ci “Jahorina Film Festivalı”nda “Ən yaxşı sənədli film” nominasiyası üzrə “Golden Maple” (“Qızıl ağcaqayın”), Polşada “OFF CİNEMA” 25-ci Beynəlxalq Sənədli Film Festivalında “Bronze Castle” (“Bürünc qəsr”) mükafatlarına layiq görülüb.

Onu da qeyd edək ki, Çeboksarı festivalında tammetrajlı filmlər üzrə müsabiqənin münsiflər heyətinə azərbaycanlı kinoşünas, rejissor, Əməkdar incəsənət xadimi Ayaz Salayev sədrlik edib.

# Daşkənddə “Azərbaycan mətbəxi günü”



Özbəkistanın paytaxtı Daşkənddə “Azərbaycan mətbəxi günü” keçirilib. Tədbir Daşkənddə fəaliyyət göstərən “Yeməli” Azərbaycan restoranının təşkilatçılığı, ölkəmizin qida istehsalçısı “Azərsun Holdinq” və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) dəstəyi ilə reallaşıb.

“Azərbaycan mətbəxi günü”ndə yerli iş adamları, media mənsubları, azərbaycanlılar iştirak ediblər.

“Yeməli” restoranın direktoru Elgün Əliyev və digər çıxışçılar Azərbaycan mətbəxinin ölkənin mədəniyyəti və təbiəti kimi zəngin, rəngarəng olduğunu qeyd ediblər.

“Azərbaycan mətbəxi günü”ndə plov və dolmanın növləri, habelə çığırtma, qutab, milli şirniyyatlar – şəkərbura, paxlava, qoğal tədbir iştirakçılarına təqdim edilib, müxtəlif yeməklərin hazırlanması üzrə ustad dərsləri təşkil olunub.

Tədbirdə AMM tərəfindən Azərbaycan mədəniyyətinə, mətbəxinə aid xüsusi guşə hazırlanıb, milli musiqi alətlərimiz, suvenirlərimiz, nəşrlər sərgilənib. “Azərsun Holdinq” şirkəti tərəfindən milli istehsal olan ərzaq, çaylar və içkilər təqdim edilib.

AMM-in nəzdindəki “Azərbaycan qızları” rəqs ansamblının, musiqiçilərin çıxışları da tədbirə rəng qatıb.

# Safranboluda “Qızıl zəfəran” sənədli filmlər festivalı

Türkiyənin Safranbolu şəhərində ənənəvi “Qızıl zəfəran” Beynəlxalq sənədli filmlər festivalı bu il 8-11 iyun tarixində keçirilib. “Mədəni irs və mühafizə” mövzusuna həsr olunan festivalda Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı da iştirak edib.




Bu il 23-cüsü keçirilən festival sənədli filmlərin nümayişi, çıxışlar, sərgilər, konsertlər, səhnə şouları və yerli mətbəxin təbliği kimi bir çox tədbirlərlə zəngin olub.

Leyla Dizdar Mədəniyyət Mərkəzində keçirilən bağlanış mərasimində sənədli film və foto müsabiqələri üzrə qaliblər təltif edilib.

Türk rejissoru Aslı Akdağın “Gözləmə” filmi “Ən yaxşı sənədli film mükafatı”nı allb. “Münsiflər heyətinin xüsusi mükafatı” Fransa rejissoru Siril Kornuya “Mamodi, sonuncu baobab qazanı” filminə görə verilib. Tammetrajlı film üzrə mükafata “Ədviyyatlı desert” filminin rejissoru Didem Şahin layiq görülüb.

Foto müsabiqəsində Barış Topdemir “Toxuculuq” əsəri ilə birinci, Ahmet Harmancı “Fotoqraf” əsəri ilə ikinci, Mehmet Yılmaz “Mədəni irs” əsəri ilə üçüncü mükafata layiq görülüblər.

Qaliblərə mükafatları Safranbolu Bələdiyyəsinin başqanı və festival komitəsinin rəhbəri Elif Köse, Safranbolu kaymakamı Mehmet Türköz, İzmit Bələdiyyəsi başqanı Fatma Kaplan və başqaları təqdim ediblər.

Tədbir çərçivəsində Safranbolu Bələdiyyəsi başqanı ilə görüşən Elçin Qafarlı TÜRKSOY-un Baş katibi Sultan Raevin salamlarını çatdırıb, dəvətə görə təşəkkür edib. Görüşdə TÜRKSOY ilə Safranbolu Bələdiyyəsi arasında birgə layihələr də müzakirə edilib. Elçin Qafarlı bələdiyyə başqanına TÜRKSOY-un xatirə hədiyyəsini və “Qarabağ: işğaldan əvvəl və sonra” kitab-albomunu təqdim edib.

**Mehparə Sultanova**
**Ankara**

Xronoqraf

# Tarixdə bu gün

Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 300 il əvvəl...

**18 iyun 1722-ci ildə** I Pyotrun başçılığı ilə rus qoşunlarının Həştərxandan Azərbaycan torpaqlarına yürüşü başlanıb. Bu ərəfədə (15 iyun) Şirvan və Xəzəryanı əhaliyə bəyannamə ünvanlayan rus çarı yerli əhaliyə qarşı pis niyyətlərinin olmadığını bildirmişdi. İlk yürüşdən nəticə əldə edə bilməyən I Pyotr bir il sonra yenidən qoşunlarını regiona göndərdi. Səfəvi dövləti ilə imzalanan Peterburq müqaviləsinə (12 sentyabr 1723-cü il) əsasən, Azərbaycanın Xəzəryanı əraziləri (Bakı da daxil olmaqla) Rusiyanın nəzarətinə keçdi.

### 207 il əvvəl...

**18 iyun 1815-ci ildə** Napoleon ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələnən Vaterloo (Belçikada yaşayış məntəqəsi) döyüşü olub. Müttəfiqlər tərəfindən sürgünə göndərildiyi Elba adasından qaçaraq Fransaya gələn (“100 günlük hakimiyyət”) və ordusunu yenidən toplayaraq Belçika üzərinə hücuma keçən Napoleon ingilis-holland-alman qüvvələri tərəfindən məğlub edilib. Napoleon İngiltərənin nəzarətində olan Müqəddəs Yelena adasına ömürlük sürgün olunub.

### 104 il əvvəl...

**16 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası və müvəqqəti hökuməti Tiflisdən Gəncəyə köçüb. Cümhuriyyətin keçici paytaxtı elan edilən Gəncə Nuru paşanın başçılıq etdiyi türk (Osmanlı) qoşunlarının nəzarətində idi.



**17 iyun 1918-ci ildə** Gəncədə ilk iclasını keçirən Azərbaycan Milli Şurası yaranmış vəziyyəti nəzərə alaraq fəaliyyətini dayandırmaq və yeni parlament formalaşanadək bütün hakimiyyəti (qanunvericilik və icra) Nazirlər Şurasına vermək barədə qərar qəbul edib. Bu addım Nuru paşanın tövsiyəsi ilə, daşnak-bolşevik (“Bakı Soveti”) qüvvələri ilə mübarizədə çevik qərarlar qəbul etmək naminə atılmışdı. İyunun 16-18-də Kürdəmir cəbhəsində, Göyçayın Qaraməryəm kəndi yaxınlığında ilk döyüş oldu.

**17 iyun 1918-ci ildə** Xalq Cümhuriyyətinin Səhiyyə Nazirliyi təşkil olunub, Xudadat bəy Rəfibəyli səhiyyə naziri təyin edilib. Prezident Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli sərəncamı ilə 17 iyun Azərbaycanda səhiyyə işçilərinin peşə bayramı günü elan olunub.

### 103 il əvvəl...

**16 iyun 1919-cu ildə** Azərbaycanla Gürcüstan arasında hərbi müttəfiqlik paktı imzalanıb. Azərbaycan gürcü tərəfə neft verərək əvəzində silah-sursat almağa başlayıb. Hərbi pakta görə, tərəflər Rusiyanın təcavüzünə qarşı bir-birinə dəstək verməli idi. Lakin 1920-ci ilin aprelində XI Qırımızı ordunun Azərbaycana hücumu zamanı Gürcüstan bu öhdəliyə deyil, özünün müstəqilliyinin tanınması barədə ruslarla separat danışıqlara üstünlük verdi.

### 102 il əvvəl...

**19 iyun 1920-ci ildə** Xalq Cümhuriyyətinin qurucularından Fətəli xan Xoyski Tiflisdə erməni terrorçuları Aram Erkayan və Misak Qriqoryan tərəfindən qətlə yetirilib. Terror aktı nəticəsində Xəlil bəy Xasməmmədov (Cümhuriyyətin ədliyyə və daxili işlər naziri) ağır yaralanıb.

### 78 il əvvəl...

**17 iyun 1944-cü ildə** Danimarka ilə İslandiya arasında uniya (ittifaq) sona çatıb. Hər iki ölkədə keçirilən referendum nəticəsində İslandiya müstəqil respublika elan olunub. Buzlaqlar ölkəsi İslandiya (ərazisi 103 min kvadrat kilometr) XIV əsrin sonundan Danimarkanın hökmranlığı altında idi. Danimarka-İslandiya uniyası 1918-ci ildə yaradılmışdı.

### 61 il əvvəl...

**19 iyun 1961-ci ildə** Küveyt müstəqillik əldə edib. XVI əsrdən Osmanlı imperiyası tərkibində olan Küveyt 1899-cu ildə Britaniyanın protektoratlığına keçmişdi.

### 30 il əvvəl...

**16 iyun 1992-ci ildə** Azərbaycanla Rumıniya (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 11-də tanıyıb) arasında diplomatik münasibətlər qurulub.

**17 iyun 1992-ci ildə** Azərbaycan Belçika (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 31-də tanıyıb) ilə diplomatik münasibətlər qurub.

### 29 il əvvəl...

**18 iyun 1993-cü ildə** Prezident Əbülfəz Elçibəy gecə ikən gizli şəkildə bir qrup AXC fəalı ilə Bakını tərk edərək Naxçıvanın Ordubad rayonunun Kələki kəndinə gedib. Bu hərəkət ölkədə hakimiyyət böhranını daha da ağırlaşdırıb. Həmin gün televiziya ilə xalqa müraciət edən Ali Sovetin sədri Heydər Əliyev respublikaya rəhbərliyi öz üzərinə götürməyə məcbur olub.

### 21 il əvvəl...

**18 iyun 2001-ci ildə** Prezident Heydər Əliyev “Dövlət dilinin işlənməsinin təkmilləşdirilməsi haqqında” fərman imzalayıb. Fərmana əsasən, 2001-ci il 1 avqust tarixindən Azərbaycan dilində olan bütün çap məhsulları latın qrafikalı əlifbaya keçib, bütün rəsmi yazışma və sənədləşmə latın qrafikasında aparılmağa başlanıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1724
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641